"Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının İllik Ümumi Yığıncağının 21 may 2026-cı il tarixli 2 nömrəli Protokolu ilə təsdiq edilmişdir

"Unibank Kommersiya Bankı" ASC-nin

İdarə heyətinin sədri v.m.i.e _____ Heybət Qədirov

Qiymətli kağızların emitenti
"Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin
2025-ci il üzrə
İLLİK İDARƏETMƏ HESABATI

1. Emititn təşkilati-hüquqi forması, tam və qısaldılmış adı, dövlət qeydiyyatının tarixi və nömrəsi;	Emitent təşkilatın hüquqi forması: Açıq Səhmdar Cəmiyyəti Emitentin adı: "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti, "Unicapital İnvestisiya Şirkəti" ASC Dövlət qeydiyyatının tarixi: 19.12.2007 Dövlət qeydiyyatının nömrəsi: 1401258741
2. Emitentin hüquqi ünvanı və olduğu yer;	Hüquqi ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi 55, 384-cü məhəllə Olduğu yer: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44, (Caspian Plaza Biznes Mərkəzi, 10-cu mərtəbə)
3. Emitentin adında və təşkilati-hüquqi formasında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları və təşkilati-hüquqi formaları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı və təşkilati-hüquqi forması, emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları və təşkilati-hüquqi formaları;	Emitent öz hazırkı adını "Unicapital" Açıq Səhmdar Cəmiyyətinin 03 noyabr 2015-ci il tarixli İdarə Heyətinin qərarı (Protokol № 74) və 03 dekabr 2015-ci il tarixdə "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında almışdır.
4. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;	Yoxdur
5. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquq forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, yaxud cəmiyyətin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;	Yoxdur

6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;	1 hüquqi şəxs: „Unibank Kommersiya Bankı" ASC, AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi 55, 384-cü məhəllə
7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;	İnvestisiya şirkəti fəaliyyəti
8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;	Lisenziya N087910. Verilmə tarixi 08 yanvar 2016-ci il Qeydiyyat nömrəsi İSN/L-30/2016. Lisenziya müddətsizdir. İnvestisiya xidmətləri: Əsas investisiya xidmətləri: • Qiymətli kağızlar və ya törəmə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri səfarişlərinin qəbul və icra edilməsi • İnvestisiya məsləhətlərin verilməsi • Fərdi portfelinin idarə edilməsi • Qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderaytinqi • Qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderaytinqi • Mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə əlatləri ilə əməliyyatlar aparılması • Marja ticarət. Yardımçı investisiya xidmətləri: • Müştərinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi • İnvestisiya qiymətli kağızların və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi • Qiymətli kağızların və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması • Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncəmşısı xidmətinin həyata keçirilməsi • Əsas investisiya xidmətinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.
9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər;	İnvestisiya xidmətləri: Əsas investisiya xidmətləri: • Qiymətli kağızlar və ya törəmə alətləri ilə aparılan əməliyyatlarla

	bağlı müştəri səfarişlərinin qəbul və icra edilməsi • İnvestisiya məsləhətlərin verilməsi • Fərdi portfelinin idarə edilməsi • Qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderaytinqi • Qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderaytinqi • Mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə əlatləri ilə əməliyyatlar aparılması • Marja ticarət. Yardımçı investisiya xidmətləri: • Müştərinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi • İnvestisiya qiymətli kağızların və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi • Qiymətli kağızların və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması • Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncəmşısı xidmətinin həyata keçirilməsi • Əsas investisiya xidmətinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.
10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası;	İşçi sayı: 2025-ci ilin I rübün sonuna – 46 nəfər 2025-ci ilin II rübün sonuna – 49 nəfər 2025-ci ilin III rübün sonuna – 47 nəfər 2025-ci ilin IV rübün sonuna – 48 nəfər
11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;	**Müşahidə Şurası:** • Qəribov Tahir Hikmət oğlu (sədr) • Hüseynov Faiq Arif oğlu (üzv) • Rəsulzadə Emin Fərid oğlu (üzv) **İcra orqanı (Baş direktor):** • Namazov Vüqar Faiq oğlu **Audit Komitəsi:** • Hüseynov Faiq Arif oğlu (sədr) • Samir Balayev Həsən oğlu (üzv) • Fazil Məmmədov Müzahir oğlu (üzv) – 30.12.2025-ci ilədək

	• Əliyeva Nərgiz Elçin qızı (üzv) – 11.03.2026-cı il tarixdən etibarən
12 Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı;	1 hüquqi şəxs, „Unibank Kommersiya Bankı“ ASC, adi səhm sahibi
13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;	"Unibank"Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti (Bakı şəhəri, R.Behbudov küç., 55, məhəllə 384, VÖEN 1300017201) – hər birinin nominal dəyəri 3 AZN olan 100 000 adlı sənədsiz adi səhm, nizamnamə kapitalında payı-100%
14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);	Yoxdur
15. Emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat:	
15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvanı):	1. Bakı şəhəri, **23.05.2025-**ci il tarixində R.Behbudov küçəsi 55 ünvanında keçirilən səhmdarların illik ümumi yığıncağı; 2. Bakı şəhəri, **18.09.2025**-cü il tarixində R.Behbudov küçəsi 55 ünvanında keçirilən səhmdarların növbədənkənar ümumi yığıncağı.
15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar:	**23.05.2025-cü il tarixində keçirilən illik ümumi yığıncaqda qəbul edilən qərarlar:** 1. "Unicapital İnvestisiya Şirkəti" ASC-nin investisiya qiymətli kağızlarının emitenti olaraq 2024-cü il üzrə idarəetmə hesabatının təsdiq edilməsi və açıqlanması barədə. 2. "Unicapital İnvestisiya Şirkəti" ASC-nin 2024-cü il üzrə maliyyə nəticələrinin və kənar auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatlarının təsdiq edilməsi barədə **18.09.2025-ci il tarixində keçirilən növbədənkənar ümumi yığıncaqda qəbul edilən qərarlar:** 1. "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin 30.09.2022-ci il tarixli ikinci redaksiyada nizamnaməsinə Dəyişikliklər"in təsdiq edilməsi haqqında.
16.Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):	100 000 ədəd sənədsiz, adlı, adi səhm
16.1. İnvestisiya qiymətli kağızın növü və forması;	100 000 ədəd sənədsiz, adlı, adi səhm
16.2 İnvestisiya qiymətli kağızların dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;	100 000 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat tarixi dövlət qeydiyyat nömrəsi AZ1002006943, 24 noyabr 2015-ci il tarixində
16.3 İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;	100 000 ədəd sənədsiz adlı, adi səhm, hər bir səhmin nominal dəyər 3,00 AZN

16.4.İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;	300 000 manat məbləğində sənədsiz, adlı, adi səhm
16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);	400 000 manat (yalnız adi səhm mövcud olduğu üçün adi səhm üzrə ödənilmişdir)
16.6 Faizli istiqrazlar buraxılışı haqqında məlumatda-istiqrazlar üzrə gəlirliyinin illik faiz dərəcəsi;	Yoxdur
16.7 İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda):	"Bakı Fond Birjası" QSC, AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə 102A, City Point
17. Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: 17.1. Əqdin məbləği; 17.2. Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi;	Məbləğ: 35 179 167,74 manat Tam ödənilib.

18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:

Əqdin mahiyyəti	Əqdin tarixi	Əqdin məbləği (manatla)	Aidiyyət əlaqəsi – Mülki Məcəllənin müvafiq maddəsi
İnvestisiya xidmətləri	06-01-25	64.37	49-1.1.8
İnvestisiya xidmətləri	29-05-25	122.40	49-1.1.2
İnvestisiya xidmətləri	30-01-25	126.92	49-1.1.1
İnvestisiya xidmətləri	21-05-25	150.00	49-1.1.2
İnvestisiya xidmətləri	06-01-25	97,154.25	49-1.1.4
İnvestisiya xidmətləri	10-01-25	7.72	49-1.1.2
İnvestisiya xidmətləri	28-11-25	1.00	49-1.1.2
İnvestisiya xidmətləri	23-01-25	5.49	49-1.1.2
İnvestisiya xidmətləri	09-01-25	16.49	49-1.1.3
İnvestisiya xidmətləri	02-04-25	167.92	49-1.1.1
İnvestisiya xidmətləri	23-01-25	44.63	49-1.1.2
İnvestisiya xidmətləri	06-01-25	13.60	49-1.1.3

19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi	21.05.2026-cı il
20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat	www.unicapital.az

Baş direktor: **Vüqar Namazov**

Baş mühasib: **Cavid Məmmədov**

5 (beş) varaq



“UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Maliyyə Hesabatları və
Müstəqil Auditorların Rəyi
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

"UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

MÜNDƏRİCAT

	Səhifə
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI	1
MÜSTƏQİL AUDİTORLARIN RƏYİ	2-4
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI:	
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat	5
Maliyyə vəziyyəti haqqında hesabat	6
Kapitalda dəyişikliklər haqqında hesabat	7
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat	8-9
Maliyyə hesabatları üzrə qeydlər	10-58

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən maliyyə hesabatlarının, Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 29 aprel 2026-cı il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

Cəmiyyətin adından:

Vüqar Namazov
Baş direktor

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Aytəkin Muxtarova
Maliyyə direktoru

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və İdarə Heyətinə:

Rəy

Biz "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatların qısa xülasəsi də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Rəy üçün Əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

İzahedici Paraqraf – Əlaqəli Tərəflərlə Əməliyyatlar və Qalıqlar

Rəyimizə dəyişiklik etmədən, diqqətinizi maliyyə hesabatlarının 7 saylı Qeydinə cəlb edirik. Cəmiyyətin əlaqəli tərəflərlə əməliyyatlar üzrə əhəmiyyətli sayılan qalıqları və əməliyyatları mövcuddur. Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Bakar Tilly Azerbaijan

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

"UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

(Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
Effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış gəlir	8, 7	171,238	1,271,331
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə faiz xərci	22, 7	(89,190)	(1,262,434)
Borc alınmış vəsaitlər üzrə faiz xərci	23	(25,302)	-
İcarə öhdəliyi üzrə faiz xərci	24	(24,610)	(24,258)
Xalis faiz gəliri/(xərci)		**32,136**	**(15,361)**
Xalis haqq və komissiya gəliri	9, 7	3,242,314	2,712,534
Qiymətli kağızlarla əməliyyatlar üzrə xalis gəlir	16, 7	134,436	487,043
Qeyri-faiz gəliri		**3,376,750**	**3,199,577**
İşçi heyəti ilə bağlı xərclər	10, 7	(2,030,170)	(1,788,664)
Ümumi və inzibati xərclər	10, 7	(1,097,618)	(887,471)
Digər xərclər, xalis		(6,550)	(44,536)
Dividend gəliri		30,324	-
Qeyri-faiz xərci		**(3,104,014)**	**(2,720,671)**
Mənfəət vergisindən əvvəl mənfəət		**304,872**	**463,545**
Mənfəət vergisi xərci	11	(19,438)	(117,402)
İl üzrə xalis mənfəət		**285,434**	**346,143**
İl üzrə cəmi məcmu gəlir		**285,434**	**346,143**

Cəmiyyətin adından:

Vüqar Namazov
Baş direktor

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Aytəkin Muxtarova
Maliyyə direktoru

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

	Qeydlər	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	12, 7	154,965	1,066,045
Müştəri pul vəsaitləri		687,203	450,127
Əsas brokerlərdən alınacaq vəsaitlər	13	3,034,623	2,071,006
Alınacaq komissiya haqları	14, 7	1,239,409	277,254
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	15, 7	1,381,853	2,252,256
İnvestisiya qiymətli kağızları	16, 7	1,101,467	13,941,682
İstifadə hüququ olan aktivlər	17	180,682	262,249
Əmlak və avadanlıqlar	18	60,806	116,546
Qeyri-maddi aktivlər	19	659,353	294,050
Təxirə salınmış mənfəət vergisi aktivi	11	33,905	24,999
Digər maliyyə aktivləri	20	-	12,200
Digər qeyri-maliyyə aktivləri	20	16,169	34,241
CƏMİ AKTİVLƏR		**8,550,435**	**20,802,655**
ÖHDƏLİKLƏR VƏ KAPİTAL			
ÖHDƏLİKLƏR:			
Müştərilərə ödəniləcək vəsaitlər	21	4,972,820	4,503,475
İcarə öhdəlikləri	24	198,920	273,767
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər	22	-	12,973,176
Digər borc alınmış vəsaitlər	23	200,344	-
Ödəniləcək dividend	26, 7	-	400,000
Digər maliyyə öhdəlikləri	25, 7	1,187,979	960,563
Digər qeyri-maliyyə öhdəlikləri	25	48,236	34,972
Cəmi öhdəliklər		**6,608,299**	**19,145,953**
KAPİTAL:			
Nizamnamə kapitalı	26	300,000	300,000
Bölüşdürülməmiş mənfəət		1,498,136	1,212,702
İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış xalis gəlirlər		144,000	144,000
Cəmi kapital		**1,942,136**	**1,656,702**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**8,550,435**	**20,802,655**

Cəmiyyətin adından:

Vüqar Namazov
Baş direktor

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Aytəkin Muxtarova
Maliyyə direktoru

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

"UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

(Azərbaycan manatı ilə)

	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış xalis gəlirlər	Cəmi kapital
1 yanvar 2024-cü il	**300,000**	**1,266,559**	**144,000**	**1,710,559**
İl üzrə xalis mənfəət	-	346,143	-	346,143
Elan edilmiş dividend	-	(400,000)	-	(400,000)
31 dekabr 2024-cü il	**300,000**	**1,212,702**	**144,000**	**1,656,702**
İl üzrə xalis mənfəət	-	285,434	-	285,434
31 dekabr 2025-ci il	**300,000**	**1,498,136**	**144,000**	**1,942,136**

Cəmiyyətin adından:

Vüqar Namazov
Baş direktor

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Aytəkin Muxtarova
Maliyyə direktoru

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ			
Mənfəət vergisindən əvvəl mənfəət		304,872	463,545
Nağdsız maddələr üzrə düzəlişlər:			
Köhnəlmə və amortizasiya xərcləri	17, 18, 19	160,559	154,464
Hesablanmış faiz üzrə dəyişiklik		168,413	(105,694)
Əmlak və avadanlıqların silinməsi üzrə zərər		-	21,687
Dividend gəliri		(30,324)	-
Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri		**603,520**	**534,002**
Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər			
Alınacaq komissiya haqları üzrə xalis dəyişiklik		(962,155)	(207,405)
Əsas brokerlərdən alınacaq vəsaitlər üzrə xalis dəyişiklik		(963,617)	2,143,397
İstifadəsi məhdudlaşdırılmış əmanətlər üzrə xalis dəyişiklik		870,403	2,964,469
Digər qeyri-maliyyə aktivlərində xalis dəyişiklik		14,945	24,196
Digər maliyyə aktivlərində xalis dəyişiklik		12,200	7,200
Müştərilərə ödəniləcək vəsaitlər üzrə xalis dəyişiklik		232,269	(4,935,202)
Digər maliyyə öhdəliklərində xalis dəyişiklik		227,416	510,655
Digər qeyri-maliyyə öhdəliklərində xalis dəyişiklik		132,928	(148,415)
Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri		**167,909**	**892,897**
Ödənilmiş mənfəət vergisi		(148,008)	(5,000)
Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri		**19,901**	**887,897**
İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ			
İnvestisiya qiymətli kağızlarının satışından daxilolmalar / alınması üzrə ödənişlər, xalis		12,811,124	(4,087,193)
Əmlak və avadanlıqlar üzrə ödənişlər		(21,665)	(22,005)
Qeyri-maddi aktivlər üzrə ödənişlər		(390,325)	(169,646)
Əmlak və avadanlıqların silinməsindən daxilolmalar		26,562	-
Kapital qiymətli kağızlarının satın alınması		(190,298)	-
Əldə edilmiş dividend		30,324	-
İnvestisiya fəaliyyətindən daxil olan/(investisiya fəaliyyətinə yönəldilən) xalis pul vəsaitləri		**12,265,722**	**(4,278,844)**
MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ			
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə daxilolmalar, xalis	22	(12,922,200)	4,083,260
Borc alınmış vəsaitlər üzrə daxilolmalar	23	500,000	-
Borc alınmış vəsaitlər üzrə ödəniş	23	(299,656)	-
İcarə öhdəlikləri üzrə ödənilmiş əsas borc	24	(74,847)	(88,413)
Ödənilmiş dividend		(400,000)	-
(Maliyyələşdirmə fəaliyyətinə yönəldilən)/maliyyələşdirmə fəaliyyətindən daxil olan		**(13,196,703)**	**3,994,847**

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ÜZRƏ XALİS (AZALMA)/ARTMA		(911,080)	603,900
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*	12	1,066,045	462,145
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*	12	154,965	1,066,045

31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Cəmiyyət tərəfindən ödənilmiş və alınmış faizlər, müvafiq olaraq, 190,078 AZN və 390,627 AZN təşkil etmişdir.

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Cəmiyyət tərəfindən ödənilmiş və alınmış faizlər, müvafiq olaraq, 1,243,070 AZN və 1,122,016 AZN təşkil etmişdir.

Cəmiyyətin adından:

Vüqar Namazov
Baş direktor

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Aytəkin Muxtarova
Maliyyə direktoru

29 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-58-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

1. GİRİŞ

Cəmiyyət və onun əsas fəaliyyəti

“Unicapital İnvestisiya Şirkəti” Açıq Səhmdar Cəmiyyəti (“Cəmiyyət”) 30 oktyabr 2007-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyata alınmış və təsis olunmuşdur. Cəmiyyət Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin 19 dekabr 2007-ci il tarixli 1401258741 saylı şəhadətnaməsi əsasında fəaliyyət göstərir. İnvestisiya xidmətlərinin göstərilməsi üçün tələb olunan lisenziya Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 8 yanvar 2016-cı il tarixində ISN/L-30/2016 nömrəsi ilə verilmişdir.

Cəmiyyətin əsas fəaliyyəti yerli və beynəlxalq qiymətli kağızlar bazarında investisiya qoymaq istəyən müştərilərə investisiya xidmətlərinin və əsasən qiymətli kağızlarla əməliyyatlar ilə bağlı xidmətlərin göstərilməsidir. Xidmətlərin siyahısına brokerlik, diler, aktivlərin idarə edilməsi və onlayn ticarət platformalarına giriş daxildir. Cəmiyyət qiymətli kağızların ticarətini yerli və beynəlxalq bazarlarda həyata keçirir.

31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin işçilərinin sayı 48 nəfər olmuşdur (31 dekabr 2024-cü il: 45 nəfər).

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Cəmiyyətin mülkiyyət strukturu aşağıdakı kimi olmuşdur:

Səhmdar	**31 dekabr 2025-ci il**	**31 dekabr 2024-cü il**
“Unibank Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti	100%	100%
Cəmi	**100%**	**100%**

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Cəmiyyətin son nəzarətedici tərəfi cənab Eldar Qəribov olmuşdur.

Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer

Cəmiyyətin hüquqi ünvanı Rəşid Behbudov küçəsi 55, Nəsimi rayonu, Bakı şəhəri, Azərbaycan Respublikasıdır.

2. CƏMİYYƏTİN ƏMƏLİYYAT MÜHİTİ

Cəmiyyət öz əməliyyatlarını Azərbaycan Respublikasında həyata keçirir. Cəmiyyət Azərbaycanın inkişaf etməkdə olan bazar xüsusiyyətlərini əks etdirən iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafda olmasına baxmayaraq, mütəmadi olaraq yeni şərhlərə və dəyişikliklərə məruz qalır, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Təchizat zəncirlərindəki əvvəlki pozulmalar, Rusiya Federasiyası ilə Ukrayna arasındakı münaqişə fonunda yaranan geosiyasi gərginliklər və qlobal tələbat strukturundakı dəyişikliklərdən sonra qlobal iqtisadiyyat 2025-ci il ərzində uyğunlaşma prosesini davam etdirmişdir. Əmtəə qiymətlərinin geosiyasi hadisələrə və qlobal ticarət axınlarındakı dəyişikliklərə həssas qalmasına baxmayaraq, əvvəlki illərlə müqayisədə inflyasiya təzyiqləri zəifləmişdir.

2025-ci il ərzində hökumət tərəfindən həyata keçirilən iqtisadi islahatlar, sabit məzənnə rejimi və kifayət qədər xarici valyuta ehtiyatlarının mövcudluğu fonunda Azərbaycan iqtisadiyyatı ümumi makroiqtisadi sabitliyi qoruyub saxlamışdır.

İlkin məlumatlara əsasən, 2025-ci ildə Azərbaycanda ÜDM 2024-cü illə müqayisədə 1.4% artaraq 129.1 milyard AZN-ə (75.9 milyard ABŞ dollarına) çatmışdır. Neft və qaz sektorunda yaradılmış əlavə dəyər 1.6% azaldığı halda, qeyri-neft sektorunda yaradılmış əlavə dəyər 2.7% artmışdır.

2025-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi 43.8 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 22.6 milyard ABŞ dolları ixrac olunan malların, 21.2 milyard ABŞ dolları isə idxal olunan malların payına düşərək, 1.5 milyard ABŞ dolları məbləğində müsbət ticarət saldosu formalaşmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının (ARMB) məlumatına əsasən 2025-ci ilin yanvar-dekabr ayları üzrə istehlak qiymətləri indeksi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 105.6% təşkil etmişdir. ARMB monetar siyasətinin idarə edilməsi və Azərbaycan manatının sabitliyinin təmin edilməsi məqsədilə fəaliyyətini davam etdirmişdir. Qlobal inflyasiya tendensiyalarına uyğun olaraq uçot dərəcəsi tənzimlənmiş və 31 dekabr 2025-ci il tarixinə yenidən maliyyələşdirmə dərəcəsi 6.75% müəyyən edilmişdir (31 dekabr 2024-cü il: 7.25%).

31 dekabr 2025-ci il tarixinə Azərbaycanın strateji xarici valyuta ehtiyatları, 31 dekabr 2024-cü il tarixinə 71 milyard ABŞ dolları ilə müqayisədə 83.5 milyard ABŞ dolları təşkil edərək Azərbaycan manatının sabitliyi və bütövlükdə makroiqtisadi dayanıqlılığı dəstəkləyən əhəmiyyətli artımı əks etdirmişdir.

“Fitch” reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici valyuta kredit reytinqini “BBB-” səviyyəsində, 2025-ci il üzrə sabit proqnozla qiymətləndirmişdir. Bu qiymətləndirmə maliyyə göstəriciləri, güclü xarici balans mövqeyi və əhəmiyyətli dövlət aktivlərini əks etdirir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı vergi, hüquqi, qanunverici və siyasi sahədə irəliləyişlər ilə yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və monetar tədbirlərdən də asılıdır. Rəhbərlik iqtisadi mühitdə baş verən hadisələrin Cəmiyyətin əməliyyatlarına təsirini və nəticə etibarilə bunun Cəmiyyətin maliyyə vəziyyətinə necə təsir edəcəyini proqnozlaşdıra bilmir.

3. ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

Hesabatların uyğunluğunun bəyanı

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanmışdır.

Fasiləsizlik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq Cəmiyyəti ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyini düşünür. Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Cəmiyyətin aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

Təqdimat meyarlarının digər əsasları

Bu maliyyə hesabatları Cəmiyyətin həm də funksional valyutası olan Azərbaycan manatı (“AZN”) ilə təqdim edilmişdir. Aşağıdakı uçot siyasətlərində açıqlanan hallar istisna olmaqla, bu maliyyə hesabatları tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır, məsələn, investisiya qiymətli kağızları digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə qiymətləndirilmişdir.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS Mühasibat Uçotu Standartlarına uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat

Cəmiyyət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Cəmiyyət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- aktiv Cəmiyyətin adi əməliyyat dövründə satılması və ya istifadə olunması üçün saxlanıldıqda və ya aktivin realizasiya olunması ehtimal olunduqda;
- aktiv əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- aktivin hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- aktiv hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnifləşdirilir.

Cəmiyyət aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:

- adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli kimi təsnif edir.

Gəlir və xərclərin tanınması

Gəlirlər Cəmiyyətə iqtisadi mənfəətin gəlməsi və gəlirin etibarlı şəkildə ölçülməsi ehtimalı olduğu dərəcədə tanınır. Gəlir tanınmadan əvvəl aşağıdakı xüsusi tanınma meyarlarına da cavab verilməlidir:

Faiz və bənzər gəlir və xərclər

Cəmiyyət borc maliyyə aktivləri üzrə faiz gəlirlərini amortizasiya olunmuş dəyərdə və ya DMGVƏD-də ölçülən kredit üzrə dəyərsizləşmiş aktivlər xaricindəki maliyyə aktivlərinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsi tətbiq etməklə hesablayır. Effektiv faiz dərəcəsi, maliyyə aktivinin və ya maliyyə öhdəliyinin xalis balans dəyərinə, maliyyə alətlərinin ehtimal olunan ömrü və ya daha qısa bir müddət ərzində ehtimal olunan gələcək pul ödənişləri və ya daxilolmaları dəqiq diskontlaşdıran faiz dərəcəsidir. Hesablama maliyyə alətlərinin bütün müqavilə şərtlərini nəzərə alır (məsələn, əvvəlcədən ödəniş opsiyaları) və birbaşa alətə aid olub, lakin gələcək kredit zərərləri olmayan, effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan hər hansı bir haqqı və ya əlavə xərcləri əhatə edir.

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin balans dəyərinə, Cəmiyyət ödəniş və ya daxilolmalar üzrə təxminləri yenidən nəzərdən keçirdiyi halda, düzəliş edilir. Düzəliş edilmiş balans dəyəri ilkin effektiv faiz dərəcəsinə əsasən hesablanır və balans dəyərindəki dəyişiklik faiz gəliri və ya xərci kimi qeydə alınır.

Maliyyə aktivi kredit üzrə dəyərsizləşdikdə, Cəmiyyət maliyyə aktivinin xalis amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsini tətbiq edərək faiz gəlirlərini hesablayır. Maliyyə aktivləri bərpa olunursa və artıq kredit üzrə dəyərsizləşmiş olmursa, Cəmiyyət faiz gəlirlərini ümumi əsaslarla hesablamağa qayıdır.

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş (“SƏKD”) maliyyə aktivləri üçün, Cəmiyyət, faiz gəlirlərini kredit üzrə uyğunlaşdırılmış effektiv faiz dərəcəsini hesablamaqla və bu dərəcəni aktivin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə hesablayır. Kredit üzrə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi, ilkin tanınma zamanı ehtimal olunan gələcək pul vəsaitlərinin axınlarını (kredit zərərləri daxil olmaqla) SƏKD aktivlərinin amortizasiya olunmuş dəyərinə endirən faiz dərəcəsidir.

Haqq və komissiya gəlirləri

Cəmiyyət, müştərilərinə təqdim etdiyi müxtəlif növ xidmətlərdən haqq və komissiya gəlirləri əldə edir. Cəmiyyət, əsas və ya agent kimi fəaliyyət göstərdiyini müəyyənləşdirmək üçün gəlir tənzimləmələrini müəyyən meyarlara əsasən qiymətləndirir. Komissiya gəlirləri aşağıdakı iki kateqoriyaya bölünə bilər:

Müəyyən müddət ərzində göstərilən xidmətlərdən əldə olunan komissiya gəlirləri

Müəyyən müddət ərzində xidmətlərin göstərilməsi üçün qazanılan haqlar müvafiq icra öhdəlikləri yerinə yetirildiyi üçün həmin müddət ərzində hesablanır. Bu ödənişlərə komissiya gəlirləri və aktivlərin idarə edilməsi, nəzarət və digər idarəetmə və məsləhət haqları daxildir.

Əməliyyat xidmətlərinin göstərilməsindən əldə edilən komissiya gəlirləri

Cəmiyyətin icra öhdəliyinin səhmlərin alınmasına razılıq vermək və ya digər qiymətli kağızların alınması və ya müəssisələrin satışını və satın alınması ilə bağlı olduğu üçüncü tərəf üzrə danışıqlardan və ya əməliyyatın müzakirəsində iştirakdan yaranan ödənişlər əsas əməliyyat başa çatdıqda tanınır. Müəyyən icra öhdəlikləri ilə əlaqəli olan haqq və ya onun komponentləri müvafiq meyarlar yerinə yetirildikdən sonra tanınır. Müqavilədə dəyişkən ödəniş nəzərdə tutulduqda, haqq və komissiya gəliri yalnız tanınmış məcmu gəlir məbləğində əhəmiyyətli silinmənin dəyişən ödənişlə əlaqəli qeyri-müəyyənlik həll olunana qədər baş verməyəcəyi ehtimalı olduğu dərəcədə tanınır.

Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər, ən yaxşı olaraq, fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında, davamlı olaraq, məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. 30 saylı Qeydə baxın.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc alınmış vəsaitlər üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması üsuludur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

İlkin dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə alətlərinin ilkin tanınması

Maliyyə aktivi və ya maliyyə öhdəliyi ilkin olaraq ədalətli dəyərlə, mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülməyən maddələr üzrə isə onların əldə edilməsi və ya buraxılması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri əlavə edilməklə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər, ən yaxşı olaraq, əməliyyat qiyməti ilə təsdiq edilir. İlkin tanınma zamanı mənfəət və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır və bu eyni maliyyə aləti ilə aparılan müşahidə oluna bilən cari bazar əməliyyatları və ya giriş məlumatları yalnız müşahidə oluna bilən bazar məlumatlarını özündə əks etdirən qiymətləndirmə üsulları ilə təsdiq oluna bilər.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri (“standart şərtlərlə həyata keçirilən” alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

Maliyyə alətlərinin təsnifatı

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə (“DMGVƏD”) ölçülmüş və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə (“MZVƏD”) təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarının yaranmasına səbəb olur.

Borc aləti aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarının yaranmasına səbəb olur.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanınma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

Biznes modelinin qiymətləndirilməsi

Cəmiyyət maliyyə aktivinin portfel səviyyəsində saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün şəkildə əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, xüsusilə rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəricilərinin necə qiymətləndirilməsi və Cəmiyyətin rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerlərinin necə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyətin məqsədinə necə nail olmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi

Bu qiymətləndirmənin məqsədləri üçün “əsas məbləğ” dedikdə, ilkin tanınma zamanı maliyyə aktivinin ədalətli dəyəri nəzərdə tutulur. “Faiz” dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məsələn, likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək.

Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Cəmiyyətin iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məsələn, reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məsələn, faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

Maliyyə aktivlərinin yenidən təsnifi

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi – EOKZ üzrə kredit zərəri ehtiyatı

Cəmiyyət AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-ni perspektiv əsasda ölçür. Cəmiyyət EOKZ-ni ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır.

EOKZ-nin ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimal olunan məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda həddindən artıq xərc və ya səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmüş borc alətləri EOKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. DMGVƏD-də borc alətləri üçün EOKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya olunmuş dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər balans dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGVƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

Cəmiyyət dəyərsizləşmə üzrə üç mərhələli model təqdim edir. Bu model ilkin tanınmadan sonra kredit keyfiyyətində dəyişikliyə əsaslanır. İlkin tanımada dəyərsizləşməyən maliyyə aləti 1-ci Mərhələyə təsnif edilir. 1-ci Mərhələdə maliyyə aktivləri EOKZ-nin ömürlük hissəsinə bərabər olan miqdarda növbəti 12 ay ərzində mümkün olan nəticələrə və ya daha qısa müddətdə (“12 aylıq EOKZ”) müqavilə müddətinə qədər ölçülür. Əgər Cəmiyyət KRƏA-nı ilkin tanınmadan sonra müəyyən edirsə, aktiv 2-ci Mərhələyə köçürülür və onun EOKZ-si ömürlük EOKZ əsasında, müqavilə əsasında son ödəmə müddətinə qədər, lakin əgər varsa ehtimal olunan ödənişlər nəzərə alınmaqla hesablanır, (“Ömürlük EOKZ”).

Cəmiyyətin KRƏA-nı müəyyən etdiyi haqqında 28 saylı Qeydə baxın. Əgər Cəmiyyət maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsini müəyyən edirsə, aktiv 3-cü Mərhələyə köçürülür və EOKZ Ömürlük EOKZ ilə ölçülür. Cəmiyyətin kredit üzrə dəyərsizləşmə üzrə aktiv və defolt anlayışları 28 saylı Qeyddə açıqlanır. Satın alındıqda və ya əldə edildikdə kredit üzrə dəyərsizləşməyə məruz qalmış aktivlər (“SƏKD” aktivləri) üçün EOKZ hər zaman Ömürlük EOKZ ilə ölçülür. SƏKD aktivləri ilkin tanınma zamanı, məsələn, əldə edilmiş dəyərsizləşdirilmiş kreditlər kimi dəyərsizləşmiş maliyyə aktivləridir. 28 saylı Qeyd EOKZ ölçülməsində istifadə edilən giriş, fərziyyə və qiymətləndirmə üsulları haqqında, eyni zamanda Cəmiyyətin EOKZ modellərində proqnozlaşdırılan məlumatları necə əhatə etdiyini izah edir.

Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi balans dəyərindən çıxılmaqla;
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin balans dəyəri onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri və digər qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən üç ay və ya daha az ödəniş müddətinə malik olan yüksək likvidlik dərəcəsinə malik qoyuluşlar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) onlar müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir və (ii) onlar MZVƏD olaraq təyin edilmir.

İstifadəsi məhdudlaşdırılmış qalıqlar pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri kateqoriyasına daxil edilməmişdir. Hesabat tarixindən sonra ən az on iki ay ərzində dəyişdirilmək və ya öhdəliyin əvəzini ödəmək məqsədləri ilə istifadəsi məhdudlaşdırılmış qalıqlar digər cari aktivlərə daxil edilir.

Əsas brokerlərdən alınacaq vəsaitlər

Əsas brokerlərdən alınacaq vəsaitlər marjinal ticarət əsasında müştərilərdən alınmış və əsas brokerlərə köçürülmüş vəsaitlərin qalığını və bu hesablar üzrə yığılmış gəlir/zərərləri təmsil edir. Əsas brokerlərdən ticarət və ya idarəçilik məqsədləri ilə alınacaq vəsaitlər, müqavilə üzrə nağd pul vəsaitlərini toplamaq və ya həm müqavilə üzrə nağd pul vəsaitlərini toplamaq, həm də maliyyə aktivini satmaq xarakteri daşımadığı üçün bu aktivlər ədalətli dəyərlə ölçülür və MZVƏD kateqoriyası üzrə tanınır. Bu maliyyə aktivləri üzrə gəlir və zərərlər marjinal ticarət əsasında MZVƏD-də təyin edilən müştərilərə ödəniləcək vəsaitlər üzrə zərər və gəlirlər çıxılmaqla təqdim olunur.

Borc qiymətli kağızları üzrə investisiyalar

Biznes modeli və pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinə əsasən, Cəmiyyət borc qiymətli kağızlarına qoyduğu investisiyaları AD, DMGVƏD və ya MZVƏD kateqoriyaları üzrə təsnifləşdirir. Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar mühasibat uçotu mühitinin uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün könüllü olaraq MZVƏD-də təyin edilmirlərsə, belə investisiyalar AD-də təsnifləşdirilir.

Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması və satılması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar MZVƏD-də təyin edilmirlərsə, DMGVƏD-də təsnifləşdirilirlər. Bu aktivlər üzrə faiz gəlirləri effektiv faiz dərəcəsi metodundan istifadə edərək hesablanır və mənfəət və ya zərərdə tanınır. Gözlənilən kredit zərəri modelindən istifadə etməklə ehtimal olunan dəyərsizləşmə ehtiyatı il üzrə mənfəət və ya zərərdə tanınır. Balans dəyəri üzrə olan bütün digər dəyişikliklər DMG-də tanınır. Borc qiymətli kağızlarının tanınması dayandırılan zaman, əvvəllər DMG-də tanınan məcmu gəlir və ya zərərlər DMG-dən çıxarılaraq mənfəət və ya zərər hesablarında təsnifləşdirilir.

Borc qiymətli kağızları üzrə investisiyalar AD və ya DMGVƏD-ə dair meyarlara cavab vermirsə, MZVƏD-də təsnifləşdirilir. Bu opsiyanın tətbiqi müxtəlif mühasibat uçotu əsasları üzrə tanınan və ya ölçülən maliyyə aktivləri və maliyyə öhdəlikləri arasındakı mühasibat uçotu uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaldırsa, Cəmiyyət ilkin tanınma zamanı MZVƏD-də olan borc qiymətli kağızları üzrə investisiyaları qəti şəkildə təyin edə bilər.

DMGVƏD-də olan kapital alətləri

İlkin tanımadan sonra, Cəmiyyət mütəmadi olaraq öz kapital investisiyalarını “Maliyyə Alətləri: Təqdimat” adlı 32 saylı MUBS üzrə kapital tərifinə cavab verən və ticarət üçün nəzərdə tutulmayan, DMGVƏD-də olan kapital alətləri kimi təsnifləşdirməyi seçir. Bu cür təsnifat hər bir alət əsasında müəyyənləşdirilir.

Bu kapital alətləri üzrə gəlirlər və zərərlər heç vaxt mənfəət və ya zərərə çevrilmir. Cəmiyyət alətin dəyərinin bir hissəsinin bərpası kimi daxilolmalar üzrə mənfəət əldə etməsi və bu halda belə gəlirlərin DMG-də qeydə alınması halı istisna olmaqla, dividendlər ödəmə haqqı təqdim edilən zaman digər gəlir kimi mənfəət və ya zərərdə tanınır. DMGVƏD-də olan kapital alətləri dəyərsizləşmə üzrə qiymətləndirməyə məruz qalmır. Bu alətlərin silinməsindən sonra yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

Alınacaq komissiya haqları

Alınacaq komissiya haqları effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyərində ölçülür.

Cəmiyyət, alınacaq komissiya haqları üzrə gözlənilən kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri, oxşar zərər xüsusiyyətlərinə malik (məsələn, coğrafi mövqe, məhsul növü, müştəri növü və reytinqi üzrə) müxtəlif müştəri seqmentlərinin qruplaşmaları üzrə vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli, ilkin olaraq, Cəmiyyətin müşahidə olunmuş tarixi defolt dərəcələrinə əsaslanır. Cəmiyyət, kredit zərəri üzrə tarixi təcrübəni gələcəkyönümlü məlumatlarla əlaqələndirmək üçün cədvəl tərtib edir.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və gözlənilən kredit zərərləri arasında mövcud olan əlaqənin qiymətləndirilməsi əhəmiyyətli sayılan bir təxmindir. Gözlənilən kredit zərərlərinin məbləği şərait və proqnozlaşdırılan iqtisadi şərtlər üzrə dəyişikliklərə qarşı həssasdır. Cəmiyyətin kredit zərəri üzrə tarixi təcrübəsi və iqtisadi şərtlər üzrə proqnozu da gələcəkdə müştərinin faktiki defoltunu təmsil etməyə bilər.

Maliyyə öhdəlikləri

Maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

Repo müqavilələri əsasında borc alınmış vəsaitlər

Cəmiyyət mülkiyyət riskləri və mükafatlarının hamısını özündə saxladığından, müəyyən edilmiş gələcək tarixdə repo müqavilələri əsasında satılan qiymətli kağızlar, maliyyə vəziyyəti haqqında hesabatdan çıxarılmır. Alınmış müvafiq pul vəsaitləri, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyətə veriləcək kredit kimi əks etdirən repo müqavilələri əsasında borc alınmış vəsaitlər kimi yığılmış faizlər də daxil olmaqla, geri qaytarılması nəzərdə tutulan müvafiq öhdəliyi olan bir aktiv kimi maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Satış və yenidən satın alma qiymətləri arasındakı fərq faiz xərcləri kimi qəbul edilir və effektiv faiz dərəcəsindən istifadə edərək müqavilə müddəti ərzində hesablanır.

Qarşı tərəfin qiymətli kağızları satmaq və ya yenidən girov qoymaq hüququ olduqda, Cəmiyyət bu qiymətli kağızları, maliyyə vəziyyəti haqqında hesabatında, müvafiq olaraq, ticarət məqsədilə təminat olaraq girov qoyulmuş maliyyə aktivi və ya toplanmaq və ya satmaq məqsədilə təminat olaraq qoyulmuş maliyyə investisiyası kateqoriyasında yenidən təsnifləşdirir.

Əksinə, müəyyən edilmiş gələcək tarixdə yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satın alınmış qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Hesablanmış faizlər də daxil olmaqla ödənilmiş kompensasiya, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyət tərəfindən kredit kimi əks etdirən əks repo müqavilələri əsasında debitor borcları daxilində maliyyə vəziyyəti haqqında hesabatda uçota alınır. Alqı-satqı qiymətləri arasındakı fərq xalis faiz gəlirində uçota alınır və EFD-dən istifadə etməklə müqavilənin qüvvədə olduğu müddət ərzində hesablanır.

Yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satın alınmış qiymətli kağızlar sonradan üçüncü şəxslərə satılarsa, qiymətli kağızların qaytarılması öhdəliyi ticarət üçün saxlanılan maliyyə öhdəliklərində qısa satış kimi qeydə alınır və xalis ticarət gəlirinə daxil edilən hər hansı gəlir və ya zərərlə ədalətli dəyərdə ölçülür.

İcarələr

Müqavilə bağlanarkən, Cəmiyyət müqavilənin icarə olduğunu və ya icarə elementləri ehtiva etdiyini qiymətləndirir. Bu hal, müqavilənin müəyyən bir ödəniş müqabilində müəyyən edilmiş aktivin təyin edilmiş bir müddət ərzində istifadəsinə nəzarət etmək hüququnun əldə edilməsi zamanı baş verir.

Borc alınmış vəsaitlər

Borc alınmış vəsaitlər effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə uçota alınır. Əmlak və avadanlıqların tikintisinin maliyyələşdirilməsi üçün cəlb edilmiş borc alınmış vəsaitlər üzrə maliyyələşdirmə xərcləri aktivin nəzərdə tutulmuş istifadəyə hazır vəziyyətə gətirilməsi və tamamlanması üçün tələb olunan müddət ərzində kapitallaşdırılır. Bütün digər borclanma xərcləri xərc kimi tanınır.

Cəmiyyət icarəçi qismində

Cəmiyyət qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Cəmiyyət icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququ təmin edən istifadə hüququ olan aktivləri tanıyır.

İstifadə hüququ olan aktivlər

Cəmiyyət istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlərin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər ən qısa icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı istifadə müddəti istifadə olunmaqla hesablanır. İstifadə hüququ olan aktivlər də dəyərsizləşməyə məruz qalır.

İcarə öhdəlikləri

İcarənin başlanğıc tarixində Cəmiyyət, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Cəmiyyət tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Cəmiyyətin ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Cəmiyyət icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin balans dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

MZVƏD-də ölçülən müştərilərə ödəniləcək vəsaitlər

Cəmiyyət ilkin tanınma zamanı MZVƏD-də ölçülən müştərilərə veriləcək məbləğləri təyin edir. Müştərilərə ödəniləcək vəsaitlər marjinal ticarət üzrə müştərilərdən cəlb olunmuş vəsaitlər və ticarət əməliyyatları üzrə müştərilərdən alınmış avans vəsaitləri təmsil edir. Marjinal ticarət əsasında müştərilərə ödəniləcək vəsaitlər üzrə mənfəət və zərərlər əsas brokerlərdən alınacaq vəsaitlər üzrə gəlir və zərərlər ilə xalis əsasda mənfəət və ya zərərdə təqdim olunur.

Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Hər hesabat dövrünün sonunda Cəmiyyət əmlak və avadanlıqların dəyərsizləşməsinin hər hansı bir göstəricisinin olub-olmadığını qiymətləndirir. Əgər belə bir göstərici mövcuddursa, Cəmiyyət, satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyəri və onun istifadə dəyərinin ən yüksək olduğu kimi müəyyən edilən, bərpa edilə bilən məbləği qiymətləndirir. Əmlak və avadanlığın balans dəyəri onların təxmin edilən bərpa edilə bilən dəyərindən çox olduqda, onların bərpa edilə bilən dəyərinə qədər silinir və fərq mənfəət və ya zərər haqqında hesabatda dəyərsizləşmə zərəri kimi əks etdirilir.

Əmlak və avadanlıqların satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda gəlir/(zərər) kimi əks etdirilir.

Təmir və istismar xərcləri baş verdikdə onlar mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda əks etdirilir.

Köhnəlmə düz xətt metodundan istifadə etməklə aktivlərin faydalı istismar müddəti ərzində qalıq dəyərləri çıxılmaqla ilkin dəyərin silinməsi üçün tanınır. Faydalı istismar müddəti təxminləri, qalıq dəyərləri və köhnəlmə metodları hər bir hesabat tarixinin sonunda yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini istismar müddəti tətbiq edilir:

Mebel və qurğular	25%
Kompüter avadanlığı	25%
Nəqliyyat vasitələri	20%
İstifadə hüququ olan aktivlər	Əsas icarə müddəti ərzində
İcarə obyektinin təkmilləşdirilməsi	Müqavilə müddəti ərzində

Silindikdə və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak və avadanlıqların tanınmasına xitam verilir. Əmlak və avadanlıqların tanınmasına xitam verilməsi nəticəsində yaranan gəlir və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin balans dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

Qeyri-maddi aktivlər

Cəmiyyətin bütün qeyri-maddi aktivlərinin qeyri-müəyyən faydalı istifadə müddətləri mövcuddur və buraya əsasən broker fəaliyyəti üçün əldə olunmuş lisenziyalar və qiymətli kağızlar üzrə ticarət ilə bağlı digər fəaliyyətlər daxildir.

Kapitallaşdırılmış təkmilləşdirmə xərcləri istisna olmaqla daxili imkanlar hesabına yaradılmış qeyri-maddi aktivlər kapitallaşdırılmır və əlaqədar xərclər, xərclərin baş verdiyi dövrdə mənfəət və ya zərərdə əks olunur. Tədqiqat xərcləri yarandıqda xərcə silinir. Ayrı-ayrı layihələr üzrə təkmilləşdirmə xərcləri, Cəmiyyət aşağıdakıları nümayiş etdirdiyi təqdirdə, qeyri-maddi aktiv kimi uçota alınır:

- Gələcək iqtisadi faydanın yaranması ehtimalı olduqda;
- Qeyri-maddi aktivlərin tamamlanması niyyəti mövcud olduqda;
- Maliyyə və digər resurslar mövcud olduqda;
- Qeyri-maddi aktivlərin istifadəsi və ya satılması imkanı mövcud olduqda;
- Qeyri-maddi aktivlərin tamamlanmasının texniki cəhətdən mümkün olduğu halda;
- Qeyri-maddi aktivlərə aid təkmilləşdirmə xərclərinin etibarlı şəkildə ölçülməsi mümkün olduqda.

Ayrıca satın alınmış və müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla tanınır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddəti ərzində düz xətt metodu ilə hesablanır. Faydalı istifadə müddəti təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir. Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər isə maya dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz qeyri-maddi aktivlərinin balans dəyərlərini, həmin aktivlər üzrə dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa, belə aktiv üzrə bərpa edilə bilən məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə bərpa edilə bilən dəyərin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin bərpa edilə bilən dəyərini təhlil edir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidi) üzrə bərpa edilə bilən dəyər aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) balans dəyərindən azdırsa, onun balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə qeydə alınmazsa, dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesablarında tanınır, bu halda dəyərsizləşmə zərəri yenidən qiymətləndirmənin azalması kimi nəzərə alınır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) balans dəyəri onun bərpa edilə bilən dəyərinin yenidən təyin edilmiş məbləğinə qədər artırılır, amma yeni təyin edilmiş balans dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə zərərlərinin tanınmasından öncə mövcud olan balans dəyərindən daha çox ola bilməz. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə metoduna görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

Silindikdə və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə qeyri-maddi aktivlərin tanınmasına xitam verilir. Qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin balans dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

Vergiqoyma

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir haqqında hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövrünün sonunda qüvvədə olan və ya mahiyyət etibarilə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun balans dəyərləri ilə onların vergiyə uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq vəsaitlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir haqqında hesabatda əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək maliyyə vəziyyəti haqqında hesabatda xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

Azərbaycan Respublikasında fəaliyyət göstərən Cəmiyyətin fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir haqqında hesabata daxil edilir.

Təqaüd və digər mükafatlar üzrə öhdəliklər

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq dövlət pensiya sistemi təqaüd ayırmalarını hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əməkhaqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir.

Cəmiyyət Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

Əməkhaqları

Əməkhaqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

Şərti öhdəliklər və aktivlər

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

Fidusiar fəaliyyətlər

Cəmiyyət, müştəriləri adından aktivlərin saxlanması və ya investisiyası ilə nəticələnən etibarlılıq və digər fidusiar xidmətlər göstərir. Fidusiar aktivlər, tanınma meyarlarına cavab verilmədiyi təqdirdə, Cəmiyyətin aktivləri olmadığı üçün, Cəmiyyətin maliyyə hesabatlarında əks olunmur. Etibarlılıq və digər fidusiar xidmətlərin göstərilməsindən əldə edilən gəlir, xidmətlərin təmin olunduğu kimi tanınır.

Nizamnamə kapitalı

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin yerləşdirilməsi ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmlər üzrə ödənilən dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

Hesabat tarixindən sonra elan edilmiş dividendlər “Hesabat tarixindən sonra baş vermiş hadisələr” adlı 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına (“10 saylı MUBS”) müvafiq olaraq maliyyə hesabatlarında açıqlanır.

Xarici valyuta əməliyyatları

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır (“AZN”).

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, Azərbaycan Respublikası Mərkəzi Bankının (“ARMB”) hesabat tarixində mövcud olan valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq uçota alınır. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlirlər/(zərərlər) sətrində göstərilir.

Xarici valyuta məzənnələri

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2025-ci il	**31 dekabr 2024-cü il**
ABŞ dolları/AZN	1.7000	1.7000
Avro/AZN	2.0022	1.7724

4. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyət növbəti maliyyə dövrü ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin qalıq dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir:

Fidusiar fəaliyyətlər

Bütün risklər və mükafatalar tərəflər arasında imzalanmış müqavilə çərçivəsində müştəriyə aid olduğu üçün müştəri adından qoyulmuş investisiyalar Cəmiyyətin aktivlərinin bir hissəsi olaraq uçota alınmır.

Hesabat dövründə Cəmiyyət müştərilərdən pul vəsaitləri əldə etmiş və müştəriləri adından borc qiymətli kağızları satın almış və ya qısamüddətli depozitlər və investisiyalar qoymuşdur. Rəhbərlik müştərilərdən əldə olunan pul vəsaitləri və onların ekvivalentləri olaraq pul vəsaitlərinin hərəkəti haqqında hesabatda tanımamışdır.

Müştərilərdən əldə olunan pul vəsaitlərinin maliyyə hesabatlarında pul vəsaitləri və onların ekvivalentləri olaraq tanınmamasının əsas səbəbləri aşağıdakı fərziyyələr və mülahizələr olmuşdur:

- Hesabat dövründə Cəmiyyətin müştərilərdən əldə etdiyi pul vəsaitlərini istifadə etmək hüququ olmamışdır;
- Hesabat dövründə Cəmiyyət müştərilərdən əldə etdiyi pul vəsaitlərindən fayda əldə etməmişdir və həmin vəsaitləri əməliyyatları zamanı və ya investisiya məqsədləri üçün istifadə etməmişdir;
- Cəmiyyət bank hesabında saxladığı pul vəsaitləri üçün müştərilərinə əvəz ödəməyə məcbur deyil və əlavə olaraq Cəmiyyətin iflası və müflisləşməsi halında müştərilərdən alınan pul vəsaitləri kreditorların ümumi iddialarını maliyyələşdirmək üçün nəzərdə tutulmamışdır; və
- Cəmiyyət Azərbaycan Respublikası Mərkəzi Bankının (tənzimləyici orqan) qaydalarına müvafiq olaraq maliyyə hesabatlarında müştərilərdən əldə etdiyi pul vəsaitləri üzrə valyuta mübadiləsindən yaranmış gəlir və ya zərərləri hesablamamalı və tanımamalıdır.

Rəhbərlik müştərilərinin pul vəsaitləri üzrə müxtəlif müqavilə əsasları və müxtəlif uçot qaydalarının aparıldığını müəyyən edərsə, maliyyə hesabatları çərçivəsində belə qalıqların təqdim edilməsi və açıqlanması müxtəlif ola bilər.

EOKZ ehtiyatının ölçülməsi

EOKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 28 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyatı üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı (“DE”), defolt vəziyyətində riskə məruz qalma (“DVRMQ”) və defolt zamanı yaranan zərər (“DZYZ”), eləcə də makroiqtisadi ssenarilər modelləri. Cəmiyyət müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Gələcəkyönümlü məlumatlar da daxil olmaqla, EOKZ ölçülməsi üzrə ətraflı məlumatlar 28 saylı Qeyddə açıqlanır.

Biznes modelinin qiymətləndirilməsi

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Cəmiyyətin rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları “toplamaq üçün saxlanılma” biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə “toplamaq üçün saxlanılma” biznes modelinin çərçivəsində dəyərləndirilir. Cəmiyyətin rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Cəmiyyətin nəzarətindən kənar olan, təkrarlanmayan və Cəmiyyət tərəfindən gözlənilməyən ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

“Toplamaq üçün saxlanılma və satış” biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Qalıq kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur. Müqavilə üzrə pul vəsaitlərinin toplanması bu biznes modeli üçün çox vaxt təsadüfi olur.

Pul vəsaitlərinin axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi (“YƏMFÖ”)

Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda, məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirildiyi, amma bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadığı hallarda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay düzəldildiyi maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ xarakteli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görünən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır. Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MZVƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Cəmiyyətin rəhbərliyi müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından öncə ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də öncədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır. Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) aktiv ilkin olaraq mükafat və ya diskontla hazırlanmışdır, (ii) ilkin ödəniş məbləği müqavilə üzrə əsas məbləği və hesablanmış faizləri və müqavilənin vaxtından əvvəl ləğvi üçün ağlabatan əlavə kompensasiyanı əks etdirir və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu

Cəmiyyət adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS-yə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat 7 saylı Qeyddə açıqlanır.

Daxili yaradılmış qeyri-maddi aktivlərin tanınması və ölçülməsi

31 dekabr 2025-ci il tarixinə daxili yaradılmış qeyri-maddi aktivlərin balans dəyəri 332,286 AZN təşkil etmişdir (31 dekabr 2024-cü il: sıfır). Bu aktivlərin texniki cəhətdən mümkünlüyünün sübut edilməsi, rəhbərlik tərəfindən ilkin olaraq nəzərdə tutulmuş fəaliyyət göstəricilərinin effektivliyi və gələcək pul vəsaitləri üzrə faydaların təmin edilməsi kimi xüsusi meyarlara cavab verməlidir. Daxili hazırlanmış qeyri-maddi aktivlərin amortizasiyası aktiv rəhbərlik tərəfindən nəzərdə tutulmuş qaydada istifadə üçün zəruri vəziyyətə gətirildikdə və istifadəyə hazır olduqda başlayır.

Cari vergilər

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, vergi və gömrük qurumları Cəmiyyətin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini nəzərdən keçirə bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər.

İcarə öhdəliklərinin qiymətləndirilməsi və istifadə hüququ olan aktivlər

16 saylı MHBS-nin tətbiqi istifadə hüququ olan aktivlər və icarə öhdəliklərinə dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Cəmiyyət yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

5. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (BMUSŞ) və BMUSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **“Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri” adlı 21 saylı MUBS-a** düzəliş dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

6. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət qüvvəyə mindiyi təqdirdə bu yeni və düzəliş edilmiş standartlar və şərhləri qəbul etməyi nəzərdə tutur.

30 may 2024-cü il tarixində MUBSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS “Maliyyə Alətləri”** və **7 saylı MHBS “Maliyyə Alətləri: Məlumatların Açıqlanması”**na düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMG-də ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

MUBSŞ 2024-cü ilin may ayında təbiət amillərindən asılı elektrik enerjisinə istinad edən müqavilələr üzrə mühasibat uçotu və açıqlama tələblərini əhatə edən **9 saylı MHBS** və **7 saylı MHBS-yə** düzəlişlər dərc etmişdir. Düzəlişlər bu tipli müqavilələrin müəssisənin öhdəlikləri, pul vəsaitlərinin hərəkəti və likvidlik riskinə təsirlərinin şəffaflığını artırır. Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur və erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində BMUSŞ **“MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild”**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
- 9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- 10 saylı MHBS: “De-fakto agent”inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı BAS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

9 aprel 2024-cü il tarixində BMUSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq – **“Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması” adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də “əməliyyat üzrə mənfəət və ya zərər” ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin “əməliyyat üzrə mənfəət və ya zərər” hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında BMUSŞ tərəfindən **19 saylı “İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması”** adlı yeni standart dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Uçot Standartlarına uyğun, ictimaiyyətə açıq olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

2025-ci ilin avqust ayında MBUSŞ **“Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri” (Hiperinflyasiyalı Təqdimat Valyutasına Çevrilmə) adlı 21 saylı MUBS-a** düzəliş dərc etmişdir. Bu düzəlişlər müəssisənin hiperinflyasiyalı mühitdə təqdimat valyutasını necə müəyyən etdiyini və valyutanın mübadilə qabiliyyəti olmadığı hallarda xarici valyuta əməliyyatlarını necə ölçdüyünü aydınlaşdırır. Qiymətləndirmə tarixində başqa bir valyutaya mübadilə olunmayan xarici valyutada əməliyyat və ya fəaliyyəti olan müəssisələr bu düzəlişlərin təsirinə məruz qalır. Düzəlişlər 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 “Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər”** və **MHBS S2 “İqlim ilə əlaqədar açıqlamalar”** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir və bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir. BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir. Hesabat tarixində hazırkı standartlar Cəmiyyətin fəaliyyət göstərdiyi ölkənin yurisdiksiyası tərəfindən qəbul edilməmişdir.

“Konsolidə edilmiş Maliyyə Hesabatları” adlı 10 saylı MHBS və “İnvestor və onun Assosiasiya edilmiş və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi” adlı 28 saylı BMUS (düzəlişlər): 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun assosiasiya edilmiş və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin assosiasiya edilmiş və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya edilmiş və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

7. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ BAĞLI ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Əlaqəli tərəflər “Əlaqəli tərəflərlə bağlı açıqlamalar” adlı 24 saylı MUBS standartında müəyyən edilir. Tərəflər, ümumiyyətlə, bir tərəf digər tərəfə nəzarət etdikdə, ümumi nəzarəti altında olduqda və ya maliyyə və əməliyyat qərarlarının qəbulunda digər tərəfə əhəmiyyətli təsir göstərdikdə və ya birgə nəzarət olduqda əlaqəli tərəf hesab olunur. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir.

Cəmiyyətə son nəzarət edən tərəf 1 saylı Qeyddə əks etdirilmişdir.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər üzrə məcmu gəlir haqqında hesabata daxil edilmiş əlaqəli tərəflərlə bağlı əməliyyatlarda tanınmış məbləğlər aşağıda göstərilmişdir:

	31 dekabr 2025-ci il		31 dekabr 2024-cü il	
	Əlaqəli tərəflərlə olan məbləğlər	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**	**Əlaqəli tərəflərlə olan məbləğlər**	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**
Effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz gəliri				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	7,299	171,238	22,691	1,271,331
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə faiz xərci				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	-	(89,190)	(43,316)	(1,262,434)
Xalis haqq və komissiya gəliri				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	(331,828)	3,242,314	(143,760)	2,712,534
Qiymətli kağızlarla bağlı əməliyyatlar üzrə xalis gəlir				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	6,926	134,436	67,938	487,043
Ümumi və inzibati xərclər				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	(33,138)	(1,097,618)	(30,414)	(887,471)

Direktorların və əsas idarəetmə üzvlərinin mükafatları aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2025-ci il		31 dekabr 2024-cü il	
	Əlaqəli tərəflərlə olan məbləğlər	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**	**Əlaqəli tərəflərlə olan məbləğlər**	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**
Əsas idarəetmə heyətinin müavinəti:				
- qısamüddətli işçi müavinətləri	(498,996)	(2,030,170)	(443,654)	(1,788,664)
Cəmi	**(498,996)**	**(2,030,170)**	**(443,654)**	**(1,788,664)**

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə əlaqəli tərəflər arasındakı qalıqların təfərrüatları aşağıdakı cədvəldə açıqlanmışdır:

	31 dekabr 2025-ci il		31 dekabr 2024-cü il	
	Əlaqəli tərəflərlə olan qalıqlar	**Maliyyə vəziyyəti haqqında hesabatda bu bənd üzrə cəmi məbləğ**	**Əlaqəli tərəflərlə olan qalıqlar**	**Maliyyə vəziyyəti haqqında hesabatda bu bənd üzrə cəmi məbləğ**
Pul vəsaitləri və onların ekvivalentləri				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	152,512	154,965	1,063,124	1,066,045
İstifadəsi məhdudlaşdırılmış əmanətlər				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	1,296,203	1,381,853	2,252,256	2,252,256
Alınacaq komissiya haqları				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	600,477	1,239,409	201,170	277,254
İnvestisiya qiymətli kağızları				
- Borc qiymətli kağızları	-	1,101,467	351,557	13,941,682
Ödəniləcək dividend				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	-	-	400,000	400,000
Digər maliyyə öhdəlikləri				
- Səhmdarlar və Cəmiyyətin səhmdarının səhmlərin mühüm hissəsinə sahib olduğu müəssisələr	671,147	1,236,215	502,342	995,535

8. EFFEKTİV FAİZ DƏRƏCƏSİ İSTİFADƏ EDİLMƏKLƏ HESABLANMIŞ FAİZ GƏLİRİ

Effektiv faiz dərəcəsi metodu istifadə edilməklə hesablanmış faiz gəliri aşağıdakı kimidir:

	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
DMGVƏD-də investisiya qiymətli kağızları üzrə faiz gəliri	171,238	1,271,331
Cəmi effektiv faiz dərəcəsi istifadə edilməklə hesablanmış faiz gəliri	**171,238**	**1,271,331**

9. XALİS HAQQ VƏ KOMİSSİYA GƏLİRİ

Haqq və komissiya gəliri aşağıdakılardan ibarətdir:

	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
Xarici valyuta fəaliyyətləri üzrə komissiya gəlirləri	2,149,853	2,063,007
Anderrayter xidmətləri üzrə haqlar	857,123	402,156
Qiymətli kağızlar, notlar və səhmlərlə bağlı brokerlik haqları	213,766	219,011
İnvestisiya üzrə məsləhət xidmətləri	26,500	46,646
Digər	65,185	2,480
Çıxılsın: Spred əməliyyatları üzrə müştərilərə edilmiş endirimlər	(70,113)	(20,766)
Cəmi xalis haqq və komissiya gəliri	**3,242,314**	**2,712,534**

10. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR VƏ İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

Ümumi və inzibati xərclər və işçi heyəti ilə bağlı xərclər aşağıdakılardan ibarətdir:

	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
Əməkhaqları və məvaciblər	(2,030,170)	(1,788,664)
Peşəkar və hüquqi xidmət haqları	(374,980)	(253,663)
Reklam xərcləri	(264,379)	(249,242)
Köhnəlmə və amortizasiya	(160,559)	(154,464)
Qonaqlama xərcləri	(53,132)	(33,533)
Bank xidmətləri üzrə haqlar	(40,371)	(30,602)
Üzvlük haqları	(32,863)	(21,665)
Kommunal xərclər	(27,413)	(26,971)
Ofis ləvazimatları	(27,053)	(28,152)
Təlim xərcləri	(23,163)	(12,853)
Rabitə xərcləri	(19,475)	(20,845)
Sığorta xərcləri	(11,436)	(15,213)
Təmizlik xərcləri	(7,151)	(6,938)
Təmir xərcləri	(3,154)	(3,472)
Digər	(52,489)	(29,858)
Cəmi ümumi və inzibati xərclər və işçi heyəti ilə bağlı xərclər	**(3,127,788)**	**(2,676,135)**

11. VERGİQOYMA

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış maliyyə illəri üzrə effektiv olan 20% vergi dərəcəsindən istifadə etməklə bütün ehtimal edilən vergi öhdəlikləri üzrə ehtiyat yaradılmışdır.

Cəmiyyət cari mənfəət vergisi öhdəliklərini və vergi bazalarını Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS Mühasibat Uçotu Standartlarından fərqlənir.

Aşağıda göstərilmiş vergi dərəcəsi, vergi qanunvericiliyi əsasında vergiyə cəlb edilən mənfəət vergisi üzrə Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslər tərəfindən ödənilməli olan 20%-ə bərabər vergi dərəcəsini təşkil edir.

	31 dekabr 2025-ci il	**31 dekabr 2024-cü il**
Aşağıdakılarla bağlı təxirə salınmış mənfəət vergisi aktivi/(öhdəliyi):		
İcarə öhdəlikləri	42,452	57,421
Əmlak və avadanlıqlar	16,021	11,325
Digər maliyyə aktivləri	10,120	7,719
Digər maliyyə öhdəlikləri	73,934	74,933
İstifadə hüququ olan aktivlər	(36,136)	(52,450)
İnvestisiya qiymətli kağızları	(36,000)	(36,000)
Alınacaq komissiyalar	(35,825)	(35,825)
Qeyri-maddi aktivlər	(661)	(2,124)
Təxirə salınmış mənfəət vergisi aktivi	**33,905**	**24,999**

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər üzrə effektiv vergi dərəcəsi üzrə üzləşdirmə aşağıdakı kimidir:

	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	**31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə**
Mənfəət vergisindən əvvəlki mənfəət	304,872	463,545
Qanunla müəyyən edilmiş vergi dərəcəsi üzrə vergi (20%)	(60,974)	(92,709)
Əvvəlki ilin vergi qiymətləndirilməsinin nəzərdən keçirilməsi	52,827	(24,690)
Daimi fərqlərin vergi təsiri	(11,291)	(3)
Mənfəət vergisi xərci	**(19,438)**	**(117,402)**
Cari mənfəət vergisi xərci	(28,344)	(151,837)
Təxirə salınmış mənfəət vergisi üzrə gəlirlər	8,906	34,435
Mənfəət vergisi xərci	**(19,438)**	**(117,402)**

	2025-ci il	**2024-cü il**
İlin əvvəlinə – təxirə salınmış mənfəət vergisi aktivi/(öhdəliyi)	24,999	(9,436)
Təxirə salınmış mənfəət vergisi qalıqlarında dəyişiklik	8,906	34,435
İlin sonuna – təxirə salınmış mənfəət vergisi aktivi	**33,905**	**24,999**

12. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı qalıqlarından ibarətdir:

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Banklardakı pul qalıqları	154,068	1,065,148
Kassadakı nağd pul vəsaitləri	897	897
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**154,965**	**1,066,045**

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsi ilə bağlı bir məhdudiyyət mövcud olmamışdır.

EOKZ hesablamaları məqsədilə, pul vəsaitləri və onların ekvivalentlərinin qalıqları 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə EOKZ əhəmiyyətsiz məbləği təmsil etdiyindən, Cəmiyyət pul vəsaitləri və onların ekvivalentləri üçün hər hansı bir kredit zərəri ehtiyatını tanımır.

31 dekabr 2025-ci il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqların kredit keyfiyyəti “Standart & Poor’s” şirkətinin reytinqləri əsasında ümumiləşdirilə bilər:

	Yerli banklar	Cəmi
- Reytinqsiz	154,068	154,068
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**154,068**	**154,068**

31 dekabr 2024-cü il tarixinə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqların kredit keyfiyyəti “Standart &Poor’s” şirkətinin reytinqləri əsasında ümumiləşdirilə bilər:

	Yerli banklar	Cəmi
- Reytinqsiz	1,065,148	1,065,148
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**1,065,148**	**1,065,148**

2025-ci il üzrə Azərbaycan Respublikasının “Standart & Poor’s” şirkəti tərəfindən dərc olunmuş beynəlxalq reytinqi “BBB-” təşkil edir.

13. ƏSAS BROKERLƏRDƏN ALINACAQ VƏSAİTLƏR

16 iyul 2018-ci il tarixində xarici broker ilə imzalanmış müqavilənin şərtlərinə əsasən, Cəmiyyət marjinal ticarət əməliyyatları aparan müştərilərdən alınan məbləğin razılaşdırılmış müvafiq bir hissəsini əsas brokerə köçürməlidir. Cəmiyyət onlayn ticarət platformasından istifadə edir və əsas broker tərəfindən göstərilən xidmətlərə görə aylıq sabit xidmət haqqı ödəyir. Cəmiyyət marjinal ticarət əməliyyatlarından yaranan zərərlərə görə məsuliyyət daşıyır və bu zərərləri/gəlirləri əsas brokerə/brokerdən həftəlik olaraq ödəyir/alır.

21 sentyabr 2018-ci il və 26 avqust 2020-ci il tarixlərinə Cəmiyyət aşağıdakı xidmətləri əldə etmək üçün xarici brokerlərlə müqavilələr bağlamışdır:

- Bir və ya daha çox maliyyə aləti ilə əlaqədar sifarişlərin qəbulu və ötürülməsi;
- Cəmiyyətin adından sifarişlərin icrası;
- Valyuta mübadiləsi xidmətləri (FX spot bazarındakı əməliyyatlar da daxil olmaqla);
- Maliyyə alətlərinə nəzarət;
- Digər əlavə xidmətlər.

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Xarici əsas brokerlərdən alınacaq vəsaitlər	3,034,623	2,071,006
Cəmi əsas brokerlərdən alınacaq vəsaitlər	**3,034,623**	**2,071,006**

Alınmış xidmətlər üzrə orta kredit müddəti tələb əsasında ödənilir. Əsas brokerdən alınacaq vəsaitlərin qalıqları üzrə heç bir faiz hesablanmır.

Cəmiyyətin əsas brokerlərdən alınacaq vəsaitlərlə bağlı ədalətli dəyər üzrə dəyişikliyi sıfıra yaxındır.

14. ALINACAQ KOMİSSİYA HAQLARI

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Brokerlik haqları üzrə alınacaq vəsaitlər	1,239,409	277,254
Cəmi alınacaq komissiya haqları	**1,239,409**	**277,254**

EOKZ-nin ölçülməsi məqsədilə alınacaq komissiyaların qalıqları 1-ci Mərhələyə daxil edilmişdir.

Bu qalıqlar üzrə EOKZ əhəmiyyətli məbləği təmsil etmir, bu səbəbdən Cəmiyyət alınacaq komissiya haqları üzrə hər hansı kredit zərəri ehtiyatını tanımır.

15. İSTİFADƏSİ MƏHDUDLAŞDIRILMIŞ ƏMANƏTLƏR

21 sentyabr 2018-ci il tarixində xarici broker ilə imzalanmış müqavilənin şərtlərinə əsasən, istifadəsi marjinal ticarət əməliyyatları aparan müştərilərdən alınan məbləğlərin razılaşdırılmış müəyyən hissəsi məhdudlaşdırılmış əmanətlər olaraq Cəmiyyət tərəfindən istifadə edilməməlidir. Cəmiyyət hesabında saxlanılan bu istifadəsi məhdudlaşdırılmış əmanətlər dərhal və ya ümumi biznes ehtiyacları üçün istifadə edilə bilməz və buna görə də pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılmışdır.

Cəmiyyətin istifadəsi məhdudlaşdırılmış əmanətlər üzrə ədalətli dəyərdə baş verən dəyişikliyin məbləği təxmini olaraq sıfıra bərabərdir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə istifadəsi məhdudlaşdırılmış əmanətlər müvafiq olaraq 1,381,853 AZN və 2,252,256 AZN təşkil etmişdir.

16. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

İnvestisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
DMGVƏD-də borc qiymətli kağızları		
Maliyyə Nazirliyinin xəzinədarlıq istiqrazları	-	12,884,939
Korporativ istiqrazlar	651,075	796,649
Cəmi DMGVƏD-də borc qiymətli kağızları	**651,075**	**13,681,588**
DMGVƏD-də kapital qiymətli kağızları		
Korporativ səhmlər	450,392	260,094
Cəmi DMGVƏD-də kapital qiymətli kağızları	**450,392**	**260,094**
Cəmi investisiya qiymətli kağızları	**1,101,467**	**13,941,682**

31 dekabr 2025-ci il tarixinə qalıqlara 5,719 AZN (31 dekabr 2024-cü il: 225,108 AZN) məbləğində hesablanmış alınacaq faizlər daxil edilmişdir. İnvestisiya qiymətli kağızları effektiv faiz dərəcələri ilə illik 8%-15% aralığında və 2027-ci ilin dekabr ayına qədər yerləşdirilmişdir (31 dekabr 2024-cü il: illik 6.37%-13% və 2031-ci ilin iyul ayı olmaqla).

31 dekabr 2024-cü il tarixinə Maliyyə Nazirliyinin cəmi 12,884,939 AZN məbləğində xəzinədarlıq istiqrazları repo müqavilələri əsasında girov kimi qoyulmuşdur (22 saylı Qeyd). 31 dekabr 2025-ci il tarixinə repo müqavilələri üzrə qalıq mövcud olmamışdır.

Cəmiyyət 5 fevral 2008-ci il tarixindən sonra, “Bakı Fond Birjası” QSC-nin nizamnamə kapitalının 4.76%-nə sahibdir. 25 iyun 2021-ci il tarixində “Bakı Fond Birjası” QSC bölüşdürülməmiş mənfəətdən köçürmə yolu ilə səhmlərinin nominal dəyərini 200 AZN-dən 800 AZN-dək yüksəltmişdir. Beləliklə, Cəmiyyətin səhm qiymətli kağızlarında 180,000 AZN artım əldə edilmişdir.

Cəmiyyət 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə qiymətli kağızlarla bağlı əməliyyatlar üzrə 134,436 AZN məbləğində gəlir əldə etmişdir (31 dekabr 2024-cü il: 487,043 AZN məbləğində gəlir).

DMGVƏD-də borc qiymətli kağızlarının ümumi balans dəyərlərindəki dəyişikliklərin təhlili aşağıdakı kimidir:

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
DMGVƏD-də borc qiymətli kağızları		
31 dekabr tarixinə ümumi balans dəyəri	13,681,588	9,445,079
Satın alınmış və ya əldə edilmiş yeni aktivlər	5,319,820	67,550,568
Satılmış aktivlər	(18,130,944)	(63,463,375)
Faiz hesablamalarında dəyişiklik	(219,389)	149,316
Cəmi DMGVƏD-də borc qiymətli kağızları	**651,075**	**13,681,588**

İnvestisiya qiymətli kağızlarının bütün qalıqları 1-ci Mərhələyə aid edilmişdir.

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində mərhələlər arasında köçürmələr olmamışdır.

17. İSTİFADƏ HÜQUQU OLAN AKTİVLƏR

	Ofis tikililəri	Cəmi istifadə hüququ olan aktivlər
İlkin dəyərdə		
1 yanvar 2024-cü il	**341,068**	**341,068**
Əlavələr	174,427	174,427
31 dekabr 2024-cü il	**515,495**	**515,495**
31 dekabr 2025-ci il	**515,495**	**515,495**
Yığılmış köhnəlmə		
1 yanvar 2024-cü il	**(177,835)**	**(177,835)**
İl üzrə köhnəlmə xərci	(75,411)	(75,411)
31 dekabr 2024-cü il	**(253,246)**	**(253,246)**
İl üzrə köhnəlmə xərci	(81,567)	(81,567)
31 dekabr 2025-ci il	**(334,813)**	**(334,813)**
Xalis qalıq dəyəri		
31 dekabr 2025-ci il	**180,682**	**180,682**
31 dekabr 2024-cü il	**262,249**	**262,249**

18. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

	Mebel və qurğular	Kompüter avadanlıqları	Nəqliyyat vasitələri	İcarə aktivlərinin təkmilləşdiril-məsi	Cəmi əmlak və avadanlıqlar
İlkin dəyər					
1 yanvar 2024-cü il	**118,032**	**90,913**	**50,496**	**91,904**	**351,345**
Əlavələr	1,318	15,433	-	5,254	22,005
Silinmə	(64,273)	(9,384)	-	-	(73,657)
31 dekabr 2024-cü il	**55,077**	**96,962**	**50,496**	**97,158**	**299,693**
Əlavələr	-	21,665	-	-	21,665
Silinmə	-	-	(50,496)	-	(50,496)
31 dekabr 2025-ci il	**55,077**	**118,627**	-	**97,158**	**270,862**
Yığılmış köhnəlmə					
1 yanvar 2024-cü il	**(69,655)**	**(53,467)**	**(8,052)**	**(49,559)**	**(180,733)**
İl üzrə tutulma	(9,410)	(16,316)	(10,099)	(18,559)	(54,384)
Silinmə	44,755	7,215	-	-	51,970
31 dekabr 2024-cü il	**(34,310)**	**(62,568)**	**(18,151)**	**(68,118)**	**(183,147)**
İl üzrə tutulma	(7,471)	(20,806)	(5,783)	(16,783)	(50,843)
Silinmə	-	-	23,934	-	23,934
31 dekabr 2025-ci il	**(41,781)**	**(83,374)**	-	**(84,901)**	**(210,056)**
Xalis qalıq dəyəri					
31 dekabr 2025-ci il	**13,296**	**35,253**	-	**12,257**	**60,806**
31 dekabr 2024-cü il	**20,767**	**34,394**	**32,345**	**29,040**	**116,546**

19. QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

	Lisenziyalar və proqram təminatı	Davam etməkdə olan tikililər	Cəmi
İlkin dəyər			
1 yanvar 2024-cü il	**176,899**	**-**	**176,899**
Əlavələr	87,922	87,914	175,836
31 dekabr 2024-cü il	**264,821**	**87,914**	**352,735**
Əlavələr	61,166	332,286	393,452
31 dekabr 2025-ci il	**325,987**	**420,200**	**746,187**
Yığılmış amortizasiya			
1 yanvar 2024-cü il	**(34,016)**	**-**	**(34,016)**
İl üzrə tutulma	(24,669)	-	(24,669)
31 dekabr 2024-cü il	**(58,685)**	**-**	**(58,685)**
İl üzrə tutulma	(28,149)	-	(28,149)
31 dekabr 2025-ci il	**(86,834)**	-	**(86,834)**
Xalis qalıq dəyəri			
31 dekabr 2025-ci il	**239,153**	**420,200**	**659,353**
31 dekabr 2024-cü il	**206,136**	**87,914**	**294,050**

Qeyri-maddi aktivlərə broker fəaliyyəti və qiymətli kağızlar üzrə əməliyyatlar ilə bağlı digər fəaliyyətlər üzrə lisenziyalar və mühasibat uçotu proqramı üzrə lisenziyalar daxildir.

31 dekabr 2025-ci il tarixinə qeyri-maddi aktivlərə “B-Book Brokerage Platform” ilə əlaqədar 332,286 AZN məbləğində kapitallaşdırılmış daxili işlənib hazırlanma xərcləri daxil edilmişdir. Aktiv 2026-cı ilin yanvar ayında istifadəyə verilmişdir.

20. DİGƏR AKTİVLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Digər maliyyə aktivləri		
İşçilərə verilmiş qısamüddətli kreditlər	**-**	12,200
Cəmi digər maliyyə aktivləri	-	**12,200**
Digər qeyri-maliyyə aktivləri		
Xidmətlər üzrə avans ödənişləri	16,169	16,809
Qeyri-maddi aktivlər üzrə avans ödənişləri	-	3,127
Digər	-	14,305
Cəmi digər qeyri-maliyyə aktivləri	**16,169**	**34,241**
Cəmi digər aktivlər	**16,169**	**46,441**

21. MÜŞTƏRİLƏRƏ ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

31 dekabr 2025-ci və 2024-cü il tarixlərində başa çatmış illər ərzində müştərilər onlayn marjinal ticarətlə məşğul olmaq üçün Cəmiyyətin ABŞ dolları ilə olan bank hesabına əmanət yerləşdirmişlər. Müqaviləyə əsasən, bu əmanətlər tələb üzrə müştəriyə ödənilir.

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə müştərilərə ödəniləcək vəsaitlər müvafiq olaraq, 4,972,820 AZN və 4,503,475 AZN təşkil etmişdir.

Göstərilən xidmətlərə görə ödənişlər üzrə orta kredit müddəti tələb əsasında ödənilir. Müştərilərə ödəniləcək vəsaitlər üzrə qalıqlar üzrə heç bir faiz ödənilmir.

Cəmiyyətin müştərilərə ödəniləcək vəsaitləri üzrə ədalətli dəyər dəyişikliyinin məbləği sıfıra yaxındır.

Cəmiyyət müştərilərə ödəniləcək vəsaitlərin təminatı olaraq heç bir girov qoymamışdır.

22. REPO MÜQAVİLƏLƏRİ ƏSASINDA BORC ALINMIŞ VƏSAİTLƏR

Repo müqavilələri əsasında borc alınmış vəsaitlər aşağıdakı əməliyyatlardan ibarətdir:

	Effektiv faiz dərəcəsi	31 dekabr 2025-ci il	Effektiv faiz dərəcəsi	31 dekabr 2024-cü il
Qeyri-əlaqəli tərəflər	-	-	7.60%-7.77%	12,973,176
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər		**-**		**12,973,176**

31 dekabr 2025-ci il tarixinə repo müqavilələri əsasında heç bir qalıq borc alınmış vəsaitlər mövcud olmamışdır.

31 dekabr 2024-cü il tarixinə 12,884,939 AZN məbləğində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin investisiya borc qiymətli kağızları və korporativ istiqrazlar bu repo müqavilələrinə əsasən girov qoyulmuşdur (16 saylı Qeyd).

31 dekabr 2024-cü il tarixinə qalıqlara 50,975 AZN məbləğində hesablanmış ödəniləcək faizlər daxil edilmişdir.

Maliyyələşdirmə fəaliyyəti üzrə müvafiq nağd və nağdsız dəyişikliklərlə repo müqavilələri əsasında borc alınmış vəsaitlərin ilin əvvəlinə və sonuna olan məbləğlərinin üzləşdirilməsi aşağıda qeyd olunmuşdur:

	2025-ci il	2024-cü il
1 yanvar	**12,973,176**	**8,846,294**
Pul vəsaitlərinin hərəkəti		
Daxilolmalar	14,733,450	448,081,390
Yenidən edilmiş ödənişlər	(27,655,650)	(443,998,130)
Ödənilmiş faizlər	(140,166)	(1,218,812)
Nağdsız dəyişikliklər		
Faiz xərci	89,190	1,262,434
31 dekabr	**-**	**12,973,176**

23. DİGƏR BORC ALINMIŞ VƏSAİTLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Borc alınmış vəsaitlər	200,344	-
Cəmi digər borc alınmış vəsaitlər	**200,344**	**-**

31 dekabr 2025-ci il tarixinə digər borc alınmış vəsaitlərə ödəmə müddəti doqquz ay və illik faiz dərəcəsi 8.25% olmaqla, "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən alınmış 200,344 AZN məbləğində borc alınmış vəsaitlər daxildir.

31 dekabr 2025-ci il tarixinə hesablanmış ödəniləcək faizlər mövcud olmamışdır.

İlin əvvəlinə və ilin sonuna olan digər borc alınmış vəsaitlərin məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən yaranan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi göstərilir:

	2025-ci il
1 yanvar	**-**
Pul vəsaitlərinin hərəkəti	
Daxilolmalar	500,000
Yenidən edilmiş ödənişlər	(299,656)
Ödənilmiş faizlər	(25,302)
Nağdsız dəyişikliklər	
Faiz xərci	25,302
31 dekabr	**200,344**

24. İCARƏ ÖHDƏLİKLƏRİ

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Cari icarə öhdəlikləri	74,753	81,415
Uzunmüddətli icarə öhdəlikləri	124,167	192,352
Cəmi icarə öhdəlikləri	**198,920**	**273,767**

31 dekabr 2025-ci il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

	Minimal icarə ödənişi müddəti		
	Bir il ərzində	Bir ildən on ilə qədər	Cəmi
İcarə ödənişləri	78,547	154,468	233,015
Maliyyə tutulmaları	(3,794)	(30,301)	(34,095)
31 dekabr 2025-ci il tarixinə xalis cari dəyər	**74,753**	**124,167**	**198,920**

31 dekabr 2024-cü il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

	Minimal icarə ödənişi müddəti		
	Bir il ərzində	**Bir ildən on ilə qədər**	**Cəmi**
İcarə ödənişləri	86,119	242,361	328,480
Maliyyə tutulmaları	(4,704)	(50,009)	(54,713)
31 dekabr 2024-cü il tarixinə xalis cari dəyər	**81,415**	**192,352**	**273,767**

İlin əvvəlinə və ilin sonuna olan icarə öhdəliklərinin məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən yaranan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi göstərilir:

	Məbləğ
1 yanvar 2025-ci il	**273,767**
Pul vəsaitlərinin hərəkəti	
Əsas məbləğin yenidən ödənilməsi	(74,847)
Ödənilmiş faiz	(24,610)
Nağdsız dəyişikliklər	
Faiz xərci	24,610
31 dekabr 2025-ci il	**198,920**

	Məbləğ
1 yanvar 2024-cü il	**187,753**
Pul vəsaitlərinin hərəkəti	
Əsas məbləğin yenidən ödənilməsi	(88,413)
Ödənilmiş faiz	(24,258)
Nağdsız dəyişikliklər	
Yeni icarə	174,427
Faiz xərci	24,258
31 dekabr 2024-cü il	**273,767**

25. DİGƏR ÖHDƏLİKLƏR

	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Digər maliyyə öhdəlikləri:		
İşçilərə ödəniləcək vəsaitlər	400,062	360,425
Ödəniləcək komissiyalar	711,283	542,736
Digər	76,634	57,402
Cəmi digər maliyyə öhdəlikləri	**1,187,979**	**960,563**
Digər qeyri-maliyyə öhdəlikləri:		
Ödəniləcək vergilər	48,236	34,972
Cəmi digər qeyri-maliyyə öhdəlikləri	**48,236**	**34,972**
Cəmi digər öhdəliklər	**1,236,215**	**995,535**

26. SƏHMDAR KAPİTALI

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Cəmiyyətin təsdiq edilmiş, emissiya edilmiş və tam ödənilmiş səhmdar kapitalı 300,000 AZN təşkil etmişdir və hər biri 3 AZN dəyərində olan 100,000 ədəd adi səhmdən ibarət olmuşdur.

Dividendlər

Dividendlər yalnız hesabat tarixindən əvvəl və ya hesabat tarixində bəyan edildikdə öhdəlik kimi tanınır və hesabat tarixində kapitaldan çıxılır. Hesabat dövründən sonra və maliyyə hesabatları dərc edilməzdən əvvəl elan edilmiş dividendlər hesabat tarixindən sonra baş vermiş hadisələr qeydində açıqlanır.

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində 400,000 AZN məbləğində dividendlər elan edilmişdir. 2025-ci il ərzində heç bir dividend elan edilməmişdir.

İnvestisiya qiymətli kağızları üzrə xalis reallaşdırılmamış gəlirlər

İnvestisiya qiymətli kağızları üzrə xalis reallaşdırılmamış gəlirlər 144,000 AZN məbləğində olan DMGVƏD-də investisiya qiymətli kağızları üzrə ədalətli dəyər dəyişikliklərini təmsil edir. 31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə ədalətli dəyərdə heç bir əhəmiyyətli dəyişiklik müşahidə edilməmişdir.

27. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Öz təxminləri, eləcə də həm daxili, həm də xarici peşəkar məsləhətlər əsasında Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu maliyyə hesabatlarında nəzərdə tutulmuş ehtiyatlardan artıq olan iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir.

Vergi qanunvericiliyi

Cəmiyyətə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən yoxlama ilindən əvvlki üç təqvim ilinə aid maliyyə dövrləri yoxlanıla bilər.

Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

Kapital məsrəfləri ilə bağlı öhdəliklər

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli müqavilə öhdəlikləri mövcud olmamışdır.

Fidusiar fəaliyyətlər

31 dekabr 2025-ci il tarixinə müştərilərin adından saxlanılan investisiyalar 14,720,205 AZN təşkil etmişdir (31 dekabr 2024-cü il: 18,411,920 AZN).

28. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi funksiyası Cəmiyyət tərəfindən maliyyə riskləri (kredit riski, bazar riski, valyuta, faiz riski, likvidlik və coğrafi), əməliyyat riskləri və hüquq riskləri ilə əlaqədar icra edilir. Risklərin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərini təyin etmək və sonradan risklərin həmin limitlər çərçivəsində saxlanılmasını təmin etməkdir. Əməliyyat və hüquq risklərinin idarə edilməsi funksiyaları əməliyyat və hüquq risklərinin azaldılması məqsədilə daxili qayda və prosedurların təmin edilməsini nəzərdə tutur.

Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallar, kredit riski kimi tanınır. Cəmiyyətin fəaliyyəti üçün əsas risk mənbələri əsas broker şirkətləri və fərdi müştərilərdir.

Yeni bir münasibət yaranarkən broker şirkəti kredit riskinin parametrlərinə uyğun təhlil edilir və təhlil hər altı aydan bir yenilənir (və ya daha tez-tez, məsələn, brokerin korporativ strukturunda dəyişiklik olduqda). Bu broker şirkəti üçün nəzərdə tutulan maksimum məruz edilmə limitləri, sonra İdarə Heyəti tərəfindən nəzərdən keçirilir və təsdiq edilir. Konsentrasiya riskinin idarə olunmasının bir hissəsi olaraq, Cəmiyyət hər bir aktiv sinfi üçün bir çox brokerlərin saxlanmasını dəstəkləyir. Mümkün olduğu təqdirdə, Cəmiyyət müştərinin mövqeyini qorumaq üçün onun əlavə vəsaitlər təmin etməsi üçün danışıqlar aparır ki, bu da birbaşa kredit riskini azalda bilər.

Ehtimal olunan kredit zərəri (EOKZ) üzrə ölçülmələr – anlayışlar

EOKZ, gələcək pul çatışmazlığının cari dəyərinin (kredit zərərlərinin orta çəkili dəyəri, verilmiş müddətə istifadə edilən müvafiq defolt riskləri ilə) ehtimal olunan təxminidir. EOKZ ölçüsü qərəzsizdir və bir sıra mümkün nəticələrin qiymətləndirilməsi ilə təyin edilir.

Diskont dərəcəsi – hesabat tarixində ehtimal edilən zərərin indiki dəyərə endirilməsi üçün bir alətdir. Diskont dərəcəsi maliyyə aləti üçün effektiv faiz dərəcəsini (EFD) və ya onun təxmini uyğunlaşdırılmasını əks etdirir.

Ömürlük müddət – EOKZ-nin ölçülməsi üçün maksimal müddətdir. Sabit ödənişli maliyyə aktivi üçün ömürlük müddət qalan müqavilə müddətinə bərabərdir.

Ömürlük EOKZ – maliyyə alətinin qalan istifadə müddəti ərzində mümkün olan defolt hallarında baş verən zərərlərdir.

12 aylıq EOKZ – maliyyə alətləri üzrə defolt hallarının baş verməsi nəticəsində meydana çıxan EOKZ-ni əks etdirən EOKZ-lərin bir qismidir, maliyyə alətinin qalan müqavilə müddəti ilə məhdudlaşdıran hesabat tarixindən 12 ay ərzində mümkündür.

Proqnozlaşdırılan məlumat – hər bir portfel seqmenti üçün kredit riskini və gözlənilən kredit zərərlərinə təsir edən əsas makroiqtisadi dəyişiklikləri ehtiva edən məlumatdır. 9 saylı MHBS maddəsinə uyğun olaraq, EOKZ-nin qiymətləndirilməsində geniş konsepsiya, proqnozlaşdırılan məlumatları nəzərdən keçirməkdir.

Aşağı kredit riskli maliyyə aktivləri – xarici reytinq agentlikləri və ya müvafiq daxili reytinq tərəfindən investisiya dərəcəsi verilmiş aktivlər, Azərbaycan Respublikası tərəfindən buraxılmış və manatla irəli sürülmüş borc alətləri, Azərbaycan Respublikasında qeydiyyatda olan şirkətlərə verilmiş manatla kreditlərdir. Maliyyə aktivləri üzrə ödənişlərin 30 gündən çox gecikməsi halında ilkin tanınma tarixinə nisbətən kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsi ehtimalı istisna edilməmişdir.

Ardıcıl altı aylıq müddət ərzində heç bir defolt meyarlarına cavab vermədikdə, alət artıq defolt vəziyyətində mövcud hesab edilmir (yəni, artıq bərpa olunmuşdur).

EOKZ-nin ölçülməsi – qiymətləndirmə üsullarının təsviri

Ümumi prinsip

SƏKD olmayan maliyyə aktivləri üçün, EOKZ, ilk olaraq tanınma tarixindən sonra borcalanın kredit riskinə əhəmiyyətli dərəcədə artmış olub-olmamasına bağlı olaraq, iki müxtəlif müddətdən biri üzrə defolt riskinə əsasən qiymətləndirilir. Bu yanaşma EOKZ ölçülməsi üçün üç mərhələli bir modeldə göstərilə bilər:

1-ci Mərhələ: ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşməyə məruz qalmamış maliyyə aləti və onun kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdır; zərərin ödənilməsi 12 aylıq EOKZ-lərə əsaslanır;
2-ci Mərhələ: ilkin tanınmadan sonra KRƏA müəyyən edildiyi təqdirdə, maliyyə aləti 2-ci Mərhələyə köçürülür, lakin hələ də kredit üzrə dəyərsizləşmiş hesab edilmir; zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır;
3-cü Mərhələ: maliyyə aləti kredit üzrə dəyərsizləməyə məruz qalarsa, maliyyə aləti daha sonra 3-cü Mərhələyə köçürülür və zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.

SƏKD maliyyə aktivləri üçün EOKZ həmişə ömürlük ölçülür (3-cü Mərhələ), buna görə hesabat tarixində Cəmiyyət yalnız ömürlük ehtimal olunan kredit zərərlərindəki məcmu dəyişiklikləri tanıyır.

Cəmiyyət EOKZ ölçülməsi üçün üç ayrı yanaşma həyata keçirə bilər:

- fərdi əsasda qiymətləndirmə;
- portfel əsasında qiymətləndirmə: fərdi əsasda, lakin eyni kredit riski parametrləri ilə təxmin edilən daxili reytinq (məsələn DE, DZYZ) eyni kredit riski reytinqi və kredit portfelinin həmcins seqmentləri üzrə EOKZ hesablamaları zamanı tətbiq edilir;
- xarici reytinqə əsaslanan qiymətləndirmə.

Ümumiyyətlə, EOKZ aşağıdakı kredit riski parametrlərinin birləşməsidir: DVRMQ, DE və DZYZ (parametrlərin tərifləri yuxarıda göstərilmişdir). EOKZ hesablanması üzrə ümumi yanaşma aşağıda göstərilmişdir. Bu yanaşma portfel əsasında qiymətləndirilmiş məhsullar üzrə və Cəmiyyətin həmin məhsul üzrə borcalanın xüsusi məlumatı əsasında kredit riski reytinqi qiymətləndirməsi olan məhsul üzrə tətbiq oluna bilər.

EOKZ növbəti 12 ay və ya ömürlük alətlər üzrə kredit riski parametrlərinin (DVRMQ, DE və DZYZ) proqnozlaşdırılması ilə müəyyən edilir. Bu üç komponent birlikdə artırılır və qalıq ehtimalı (yəni əvvəlki dövrdə ödənilmiş və ya defolt vəziyyətində riskə məruz qalmışdır) üzrə düzəliş edilir.

Marja riski

Cəmiyyət müştəri mənfəət və zərərin müştərinin hesabında müntəzəm olaraq yenilənməsi ilə marjinal ticarət platformasında real vaxt rejimində fəaliyyət göstərir. Marja riski əsasən müştərinin Cəmiyyətə əmanət olaraq qoyduğu cəmi vəsaitlər, yaranmış ticari zərərlərini qarşılamaq üçün yetərli olmadığı zaman yaranır.

Xüsusilə, bazarda əhəmiyyətli, ani hərəkətlər olduqda, yəni ümumi bazar dəyişkənliyi və ya müştərinin açıq mövqeyi olduğu fərdi maliyyə alətinə aid yüksək xüsusi dəyişkənlik mövcud olduğu zaman yarana bilər.

Cəmiyyət marja riskini bir sıra vasitələrlə azaldır, lakin ləğv etmir. Buraya “mövqeni bağlamaq üçün monitorinq” vasitəsilə müştəri mövqeyinə real vaxt rejimində nəzarət edilməsi, müştərilərin müqavilənin bağlanılacağı səviyyənin əvvəlcədən təyin etmək qabiliyyəti (“dayanma” səviyyəsi və “zəmanətli dayanma” səviyyəsi), müxtəlif səviyyəli marjalardan istifadə daxildir.

Bu risk həmçinin müştəri üzrə davamlılıq meyarlarının tətbiq edilməsi vasitəsilə əhəmiyyətli mövqelər üzrə müştərilərdən tələb olunan marjanın artırılması, eləcə də müştərilərin ticarət və risklərin idarə olunması üzrə bütün mövzularda maliyyə biliklərinin artırılması məqsədi ilə müfəssəl təlimlərin təşkil olunması və nəticə etibarilə müştərilərin öz hesabları üzrə minimal tələb olunan səviyyədən daha artıq vəsaitlə təmin olunmasının təşviq edilməsi vasitəsilə qismən idarə olunur.

Cəmiyyətin “bağlanma nəzarəti” tətbiq edilən müştəriləri

“Bağlanma nəzarəti” (BN) - ləğvetmə həddini pozmuş hesabların avtomatik olaraq təsbit edildiyi avtomatlaşdırılmış bir ləğvetmə prosesidir. Burada, müştəri zərərlərinin ümumi kapitalı müəyyən edilmiş ləğvetmə səviyyəsindən aşağı düşdükdə, ləğv olunur, nəticədə Cəmiyyət üçün kredit riskinə məruz qalma riski azalır.

Həm “bağlanma nəzarəti”, həm də müştəri tərəfindən yaradılan “bağla əmrləri” bazar riskinin Cəmiyyətə keçməsi ilə nəticələnir. Bazar riski, əsas müştəri mövqeyinin Cəmiyyətin (“Bazar riski” bölməsində müzakirə olunan bazar riski limitlərinə məruz edildiyi təqdirdə) bağlanmasının ardından, kifayət qədər bazar likvidliyini ehtiva edən müvafiq hedcinq mövqeyinə malik ola bilər.

Bundan əlavə, müştərilərin bir qismi “Limitli risk” hesabları adlanan hesablar açır. Belə hesablar üçün səviyyə əvvəlcədən müəyyən edilir (müqavilə üzrə “zəmanətli dayanma” səviyyəsi), yəni müştərinin maksimal zərəri ticarətin açılmasında hesablana bilər. Müştərilər zəmanətli dayanma səviyyələri ilə vəsaitlərin yerləşdirilməsi üzrə hər bir əməliyyatda kiçik bir mükafat ödəyir. Maksimal zərər məbləği müştəridən ticarətə başlamaq üçün qoyulması tələb olunan əmanət məbləğidir, yəni əksər hallarda müştərinin itkisi ilkin marja əmanətindən artıq ola bilməz. Artıq yeni müştərilərə bu təklifin olmamasına baxmayaraq, Cəmiyyətin hələ də bu hesab növü üzrə əhəmiyyətli sayda müştəriləri mövcuddur.

Bazar riski

Cəmiyyət bazar riskinə məruz qalır. Bazar riski ümumi və xüsusi bazar dəyişikliklərinə məruz qalan xarici valyuta və faiz gəliri yaradan aktiv və öhdəliklərdə olan açıq mövqedən yaranır. Rəhbərlik qəbul edilə bilən risk səviyyələri üzrə məhdudiyyətlər təyin edir və onların gündəlik monitorinqini keçirir. Buna baxmayaraq, bu metodun istifadə edilməsi daha zəruri bazar dəyişikləri baş verdikdə bu çərçivələrdən kənar zərərlərin qarşısını ala bilməz.

Xarici valyuta riski

Xarici valyuta riskini idarə edərkən rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Mövqelər hər ay nəzərdən keçirilir.

Aşağıdakı cədvəl 31 dekabr 2025-ci il tarixinə əsas idarəetmə heyəti tərəfindən nəzərdən keçirilmiş hesabatlar əsasında xarici valyuta məzənnələrindən yaranan risklərin xülasəsini təqdim edir:

	AZN	ABŞ dolları	Avro	Cəmi
MALİYYƏ AKTİVLƏRİ				
Pul vəsaitləri və onların ekvivalentləri	109,225	45,740	-	154,965
Müştəri pul vəsaitləri	-	528,052	159,151	687,203
Əsas brokerlərdən alınacaq vəsaitlər	-	3,034,623	-	3,034,623
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	-	1,381,853	-	1,381,853
İnvestisiya qiymətli kağızları	925,981	175,486	-	1,101,467
Alınacaq komissiya haqları	466,519	772,890	-	1,239,409
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**1,501,725**	**5,938,644**	**159,151**	**7,599,520**
MALİYYƏ ÖHDƏLİKLƏRİ				
Müştərilərə ödəniləcək vəsaitlər	64,503	4,749,168	159,149	4,972,820
Digər borc alınmış vəsaitlər	200,344	-	-	200,344
İcarə öhdəlikləri	198,920	-	-	198,920
Digər maliyyə öhdəlikləri	480,647	707,332	-	1,187,979
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**944,414**	**5,456,500**	**159,149**	**6,560,063**
AÇIQ VALYUTA MÖVQEYİ	**557,311**	**482,144**	**2**	**1,039,457**

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə əsas idarəetmə heyəti tərəfindən nəzərdən keçirilmiş hesabatlar əsasında xarici valyuta məzənnələrindən yaranan risklərin xülasəsini təqdim edir:

	AZN	ABŞ dolları	Avro	Cəmi
MALİYYƏ AKTİVLƏRİ				
Pul vəsaitləri və onların ekvivalentləri	489,545	576,500	-	1,066,045
Müştəri pul vəsaitləri	38,589	270,655	140,883	450,127
Əsas brokerlərdən alınacaq vəsaitlər	-	2,071,006	-	2,071,006
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	-	2,252,256	-	2,252,256
İnvestisiya qiymətli kağızları	13,151,225	790,457	-	13,941,682
Alınacaq komissiya haqları	98,128	179,126	-	277,254
Digər maliyyə aktivləri	12,200	-	-	12,200
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**13,789,687**	**6,140,000**	**140,883**	**20,070,570**
MALİYYƏ ÖHDƏLİKLƏRİ				
Müştərilərə ödəniləcək vəsaitlər	38,791	4,325,296	139,388	4,503,475
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər	12,973,176	-	-	12,973,176
Ödəniləcək dividend	400,000	-	-	400,000
İcarə öhdəlikləri	273,767	-	-	273,767
Digər maliyyə öhdəlikləri	441,848	518,715	-	960,563
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**14,127,582**	**4,844,011**	**139,388**	**19,110,981**
AÇIQ VALYUTA MÖVQEYİ	**(337,895)**	**1,295,989**	**1,495**	**959,589**

Yuxarıdakı təhlillərə yalnız maliyyə aktivləri və öhdəlikləri daxildir. Qeyri-maliyyə aktivləri əhəmiyyətli valyuta risklərinin yaranmasına gətirib çıxarmır. Ticarət əməliyyatları nəticəsində xarici valyuta riskinə nəzarət Cəmiyyətin müqavilə əsasında cəlb etdiyi kənar maliyyəçi tərəfindən müntəzəm olaraq həyata keçirilir və aşağıdakı qaydada idarə olunur:

i Hər səviyyə üzrə xarici valyutalar arasında mövqelərin və bu valyutalar üzrə müvafiq likvidlik səviyyələrinin monitorinqi;

ii Xarici valyutaların, xüsusilə də ABŞ dollarının məzənnələrində gələcək dəyişmələrin proqnozlaşdırılması.

Cəmiyyətin mənfəət və zərərinə təsirindən əlavə valyuta dəyişmə dərəcələrində belə dəyişikliklərin Cəmiyyətin kapitalına təsiri mövcud deyil. Məruz qalma Cəmiyyət müəssisəsinin funksional valyutası olmayan valyutada əks etdirilən maliyyə qalıqları üçün hesablanır.

Xarici valyuta riskinə həssaslıq

Aşağıdakı cədvəl Cəmiyyətin müvafiq xarici valyutaların məzənnəsində Azərbaycan manatına nisbətən 10%-lik artım və ya azalmaya olan həssaslığını təhlil edir. 10% rəhbərlik tərəfindən xarici valyuta risklərini təhlil edərkən daxili risk hesabatlarında istifadə olunan həssaslıq dərəcəsidir və xarici valyuta məzənnəsinin dəyişməsinin Cəmiyyətə təsirinin təhlili zamanı rəhbərlik tərəfindən istifadə olunur. Həssaslıq təhlili yalnız xarici valyutada ifadə edilmiş qalıq monetar vəsaitləri ehtiva edir və xarici valyuta məzənnələrində 10%-lik dəyişiklik nəzərə alınmaqla onların dövrün sonundakı valyuta mövqeyinin bir valyutadan digərinə çevrilməsinə düzəliş edir. Aşağıdakı müsbət rəqəmlər Azərbaycan manatının müvafiq valyutaya qarşı 10% dərəcədə güclənməsi müqabilində mənfəət və digər kapital vəsaitlərində baş vermiş artımı göstərir. Müvafiq valyutaya nisbətən Azərbaycan manatının 10% zəifləyəcəyi təqdirdə mənfəət və digər kapital üzərində müqayisə edilə bilən təsir mövcud olardı və aşağıdakı qalıqlar mənfi olardı.

	31 dekabr 2025-ci il	
	ABŞ dolları /AZN +10%	**ABŞ dolları /AZN -10%**
Mənfəət vergisindən əvvəlki mənfəətə xalis təsir	48,214	(48,214)

	31 dekabr 2024-cü il	
	ABŞ dolları /AZN +10%	**ABŞ dolları /AZN -10%**
Mənfəət vergisindən əvvəlki mənfəətə xalis təsir	129,599	(129,599)

Likvidlik riski

Likvidlik riski müəssisənin maliyyə öhdəliklərini yerinə yetirməsi zamanı üzləşəcəyi çətinliklərlə bağlı riskdir. Cəmiyyət əlində olduğu pul vəsaitləri üzrə gündəlik tələblərə məruz qalır. Likvidlik riski Cəmiyyətin kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri tərəfindən idarə edilir. Rəhbərlik hər ay Cəmiyyətin pul vəsaitləri hərəkətinin dəyişdirilən proqnozlarının monitorinqini həyata keçirir.

Cəmiyyətin likvidliyin idarə olunması üzrə rəhbərliyi öhdəliklərin yerinə yetirilməsi üçün zəruri likvidlik aktivləri səviyyəsinin hesab edilməsini, maliyyələşdirmə vəsaitlərinin əldə olunması üzrə imkanların saxlanılmasını, idarəetmə qaydalarına qarşı təəhhüdlər planı və nizamnamə tələblərinə qarşı maliyyə vəziyyəti üzrə likvidlik əmsalının monitorinqinin keçirilməsini tələb edir.

Kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri gündəlik likvidlik mövqeyinin monitorinqini və normal və ciddi bazar şərtlərini əhatə edən mütəmadi likvidlik mövqeyinin yoxlanılmasını keçirir. Kənardan cəlb edilmiş maliyyə mütəxəssislərinin öhdəliklərinə aşağıdakılar daxildir:

i. pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və hesabatın verilməsi;
ii. likvidlik riskinin toplanması faktoru kimi ən böyük təchizatçıların monitorinqi;
iii. lazım olduqda, orta və qısamüddətli borcların əldə edilməsi məqsədi ilə yerli və beynəlxalq bazarlara fəal cəlb edilmə; və
iv. Cəmiyyətin inkişaf edən fəaliyyəti sayəsində mümkün olan pul vəsaitləri hərəkətinin monitorinqi.

31 dekabr 2025-ci il tarixinə maliyyə aktivləri və öhdəliklərinin likvidlik təhlili aşağıda göstərilən kimi olmuşdur:

	Tələb edilənədək və 1 aydan az	1 aydan 3 aya kimi	3 aydan 1 ilə kimi	1 ildən 5 ilədək	5 ildən artıq
MALİYYƏ AKTİVLƏRİ					
Pul vəsaitləri və onların ekvivalentləri	154,965	-	-	-	-
Müştəri pul vəsaitləri	687,203	-	-	-	-
Əsas brokerlərdən alınacaq vəsaitlər	3,034,623	-	-	-	-
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	1,381,853	-	-	-	-
İnvestisiya qiymətli kağızları	2,418	3,301	637,879	7,477	-
Alınacaq komissiya haqları	1,239,409	-	-	-	-
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**6,500,471**	**3,301**	**637,879**	**7,477**	**-**
MALİYYƏ ÖHDƏLİKLƏRİ					
Müştərilərə ödəniləcək vəsaitlər	4,972,820	-	-	-	-
Digər borc alınmış vəsaitlər	-	-	200,344	-	-
İcarə öhdəlikləri	17,358	3,904	53,491	124,167	-
Digər maliyyə öhdəlikləri	427,955	760,024	-	-	-
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**5,418,133**	**763,928**	**253,835**	**124,167**	**-**
Likvidlik boşluğu	1,082,338	(760,627)	384,044	(116,690)	-
MƏCMU LİKVİDLİK BOŞLUĞU	**1,082,338**	**321,711**	**705,755**	**589,065**	**589,065**

31 dekabr 2024-cü il tarixinə maliyyə aktivləri və öhdəliklərinin likvidlik təhlili aşağıda göstərilən kimi olmuşdur:

	Tələb edilənədək və 1 aydan az	1 aydan 3 aya kimi	3 aydan 1 ilə kimi	1 ildən 5 ilədək	5 ildən artıq
MALİYYƏ AKTİVLƏRİ					
Pul vəsaitləri və onların ekvivalentləri	1,066,045	-	-	-	-
Müştəri pul vəsaitləri	450,127	-	-	-	-
Əsas brokerlərdən alınacaq vəsaitlər	2,071,006	-	-	-	-
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	2,252,256	-	-	-	-
İnvestisiya qiymətli kağızları	101,562	55,924	3,383,354	9,702,474	438,274
Alınacaq komissiya haqları	277,254	-	-	-	-
Digər maliyyə aktivləri	700	1,000	500	10,000	-
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**6,218,950**	**56,924**	**3,383,854**	**9,712,474**	**438,274**
MALİYYƏ ÖHDƏLİKLƏRİ					
Müştərilərə ödəniləcək vəsaitlər	4,503,475	-	-	-	-
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər	12,929,702	43,474	-	-	-
Ödəniləcək dividend	400,000	-	-	-	-
İcarə öhdəlikləri	3,477	8,783	69,155	192,352	-
Digər maliyyə öhdəlikləri	458,221	502,342	-	-	-
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**18,294,875**	**554,599**	**69,155**	**192,352**	**-**
Likvidlik boşluğu	(12,075,925)	(497,675)	3,314,699	9,520,122	438,274
MƏCMU LİKVİDLİK BOŞLUĞU	**(12,075,925)**	**(12,573,600)**	**(9,258,901)**	**261,221**	**699,495**

31 dekabr 2024-cü il tarixində Cəmiyyətdə bir ildən az müddət üzrə mənfi likvidlik boşluğu olmuşdur. 31 dekabr 2024-cü il tarixinə investisiya portfelinin 92.42%-i ikinci dərəcəli bazarda yüksək likvidliyə malik olan Maliyyə Nazirliyinin xəzinədarlıq istiqrazlarından ibarət olmuşdur. Rəhbərlik bu boşluğu ya ilkin ödəmə tarixindən əvvəl investisiya qiymətli kağızlarını satmaqla, ya da repo müqavilələri çərçivəsində əlavə borclar cəlb etməklə aradan qaldırır.

Diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili

Aşağıdakı cədvəllər Cəmiyyətin maliyyə öhdəlikləri üzrə razılaşdırılmış ödəmə müddəti ilə qalıq müqavilə müddətini əks etdirir. Cədvəllər, Cəmiyyətin ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsasən maliyyə öhdəliklərinin diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti əsasında tərtib edilmişdir.

Cədvəllərə həm faiz, həm də əsas pul vəsaitlərinin hərəkəti daxildir. Faiz axınları dəyişkən dərəcədirsə, diskontlaşdırılmamış məbləğ hesabat dövrünün sonundakı faiz əyrilərindən əldə edilir. Müqavilənin müddəti, Cəmiyyətin ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsaslanır.

Aşağıdakı cədvəl 31 dekabr 2025-ci il tarixinə diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlilini göstərir:

	Tələb əsasında və 1 aydan az	1 aydan 3 aya kimi	3 aydan 1 ilə kimi	1 ildən 5 ilə kimi	Cəmi
MALİYYƏ ÖHDƏLİKLƏRİ					
Müştərilərə ödəniləcək vəsaitlər	4,972,820	-	-	-	4,972,820
Digər borc alınmış vəsaitlər	1,377	2,754	208,699	-	212,830
İcarə öhdəlikləri	17,486	3,953	57,108	154,468	233,015
Digər maliyyə öhdəlikləri	427,955	760,024	-	-	1,187,979
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**5,419,638**	**766,731**	**265,807**	**154,468**	**6,606,644**

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlilini göstərir:

	Tələb əsasında və 1 aydan az	1 aydan 3 aya kimi	3 aydan 1 ilə kimi	1 ildən 5 ilə kimi	Cəmi
MALİYYƏ ÖHDƏLİKLƏRİ					
Müştərilərə ödəniləcək vəsaitlər	4,503,475	-	-	-	4,503,475
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər	12,965,468	43,778	-	-	13,009,246
Ödəniləcək dividend	400,000	-	-	-	400,000
İcarə öhdəlikləri	3,477	9,125	73,517	242,361	328,480
Digər maliyyə öhdəlikləri	458,221	502,342	-	-	960,563
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**18,330,641**	**555,245**	**73,517**	**242,361**	**19,201,764**

Coğrafi risk konsentrasiyası

31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin aktiv və öhdəliklərinin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

	Azərbaycan Respublikası	İƏİT ölkələri	Qeyri-İƏİT ölkələri	Cəmi
MALİYYƏ AKTİVLƏRİ				
Pul vəsaitləri və onların ekvivalentləri	154,965	-	-	154,965
Müştəri pul vəsaitləri	687,203	-	-	687,203
Əsas brokerlərdən alınacaq vəsaitlər	-	2,980,359	54,264	3,034,623
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	1,381,853	-	-	1,381,853
İnvestisiya qiymətli kağızları	1,101,467	-	-	1,101,467
Alınacaq komissiya haqları	1,239,409	-	-	1,239,409
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**4,564,897**	**2,980,359**	**54,264**	**7,599,520**
MALİYYƏ ÖHDƏLİKLƏRİ				
Müştərilərə ödəniləcək vəsaitlər	4,709,013	-	263,807	4,972,820
Digər borc alınmış vəsaitlər	200,344	-	-	200,344
İcarə öhdəlikləri	198,920	-	-	198,920
Digər maliyyə öhdəlikləri	1,153,993	-	33,986	1,187,979
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**6,262,270**	**-**	**297,793**	**6,560,063**
XALİS MÖVQE	**(1,697,373)**	**2,980,359**	**(243,529)**	**1,039,457**

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin aktiv və öhdəliklərinin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

	Azərbaycan Respublikası	İƏİT ölkələri	Qeyri-İƏİT ölkələri	Cəmi
MALİYYƏ AKTİVLƏRİ				
Pul vəsaitləri və onların ekvivalentləri	1,066,045	-	-	1,066,045
Müştəri pul vəsaitləri	450,127	-	-	450,127
Əsas brokerlərdən alınacaq vəsaitlər	-	1,984,251	86,755	2,071,006
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	2,252,256	-	-	2,252,256
İnvestisiya qiymətli kağızları	13,941,682	-	-	13,941,682
Alınacaq komissiya haqları	277,254	-	-	277,254
Digər maliyyə aktivləri	12,200	-	-	12,200
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**17,999,564**	**1,984,251**	**86,755**	**20,070,570**
MALİYYƏ ÖHDƏLİKLƏRİ				
Müştərilərə ödəniləcək vəsaitlər	4,503,475	-	-	4,503,475
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər	12,973,176	-	-	12,973,176
Ödəniləcək dividend	400,000	-	-	400,000
İcarə öhdəlikləri	273,767	-	-	273,767
Digər maliyyə öhdəlikləri	944,190	-	16,373	960,563
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**19,094,608**	**-**	**16,373**	**19,110,981**
XALİS MÖVQE	**(1,095,044)**	**1,984,251**	**70,382**	**959,589**

29. KAPİTALIN İDARƏ EDİLMƏSİ

Kapitalın idarə edilməsində Cəmiyyətin məqsədləri onun fəaliyyətini davam etdirmək qabiliyyətini qorumaq üçün iştirakçıların mənfəətini qaytarmaq və kapitalın uyğunluq nisbətinə nail olmaq üçün kafi kapital bazasını saxlamaqdır.

Cari kapital tələblərinə əsasən investisiya şirkətləri ümumi kapitalın minimum səviyyəsini 300,000 AZN məbləğində saxlamalıdırlar və investisiya şirkətinin cəmi kapital tələbləri şirkətin ticarət dövriyyəsinin həcmindən asılıdır. İnvestisiya şirkətinin son 250 gün ərzində ticarət dövriyyəsi əməliyyatlarının məbləği 15,000,000 AZN-dən artıq olduqda və ya ən azı son 4 gün ərzində əməliyyatların məbləği 20,000,000 AZN-dən artıq olduğu halda həmin şirkətin ticarət dövriyyəsi əhəmiyyətli hesab olunur. Ticarət dövriyyəsi əhəmiyyətli hesab olunmayan investisiya şirkətinin kapital tələbləri onun kredit riskləri, bazar riskləri, əməliyyat riskləri, konsentrasiya riskləri, hesablaşma və qarşı tərəf riskləri əsasında hesablanmış kapital tələblərinin cəminə bərabərdir. 31 dekabr 2025-ci il tarixinə Cəmiyyət əhəmiyyətli investisiya şirkəti hesab olunmuş və kapital adekvatlığı tələblərinə cavab vermişdir.

30. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Aşağıdakı cədvəldə ədalətli dəyərlə ölçülən maliyyə alətlərinin ədalətli dəyərləri göstərilir və hər bir ədalətli dəyər ölçüsünün təsnif edildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyəyə görə təhlil edilir.

		Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi			
	Qiymətləndirmə tarixi	**Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)**	**Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)**	**Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)**	**Cəmi**
Ədalətli dəyərləri açıqlanan aktivlər					
İnvestisiya qiymətli kağızları	31 dekabr 2025-ci il	-	1,101,467	-	1,101,467
İnvestisiya qiymətli kağızları	31 dekabr 2024-cü il	-	13,941,682	-	13,941,682

Aşağıdakı cədvəldə ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərləri göstərilir və hər bir ədalətli dəyər ölçüsünün təsnif edildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyəyə görə təhlil edilir.

		Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi			
	Qiymətləndirmə tarixi	**Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)**	**Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)**	**Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)**	**Cəmi**
Ədalətli dəyərləri açıqlanan aktivlər					
Pul vəsaitləri və onların ekvivalentləri	31 dekabr 2025-ci il	154,965	-	-	154,965
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	31 dekabr 2025-ci il	1,381,853	-	-	1,381,853
Müştəri pul vəsaitləri	31 dekabr 2025-ci il	687,203	-	-	687,203
Alınacaq komissiya haqları	31 dekabr 2025-ci il	-	-	1,239,409	1,239,409
Ədalətli dəyərləri açıqlanan öhdəliklər					
Müştərilərə ödəniləcək vəsaitlər	31 dekabr 2025-ci il	-	-	4,972,820	4,972,820
Digər borc alınmış vəsaitlər	31 dekabr 2025-ci il	-	-	200,344	200,344
Digər maliyyə öhdəlikləri	31 dekabr 2025-ci il	-	-	1,187,979	1,187,979

		Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi			
	Qiymətləndirmə tarixi	**Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)**	**Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)**	**Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)**	**Cəmi**
Ədalətli dəyərləri açıqlanan aktivlər					
Pul vəsaitləri və onların ekvivalentləri	31 dekabr 2024-cü il	1,066,045	-	-	1,066,045
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	31 dekabr 2024-cü il	2,252,256	-	-	2,252,256
Müştəri pul vəsaitləri	31 dekabr 2024-cü il	450,127	-	-	450,127
Alınacaq komissiya haqları	31 dekabr 2024-cü il	-	-	277,254	277,254
Digər maliyyə aktivləri	31 dekabr 2024-cü il	-	-	12,200	12,200
Ədalətli dəyərləri açıqlanan öhdəliklər					
Müştərilərə ödəniləcək vəsaitlər	31 dekabr 2024-cü il	-	-	4,503,475	4,503,475
Repo müqavilələri əsasında borc alınmış vəsaitlər	31 dekabr 2024-cü il	-	-	12,973,176	12,973,176
Ödəniləcək dividend	31 dekabr 2024-cü il	-	-	400,000	400,000
Digər maliyyə öhdəlikləri	31 dekabr 2024-cü il	-	-	960,563	960,563